QARABAĞ AZƏRBAYCANDIR!

## "Avropa Şurası Nazirlər Komitəsinin sədrini qərəzsiz olmağa çağırırıq"



4

SƏS
№ 011 (6694) 20 yanvar 2023-cü il. Qiymәti 60 qəpik

## "Biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik"




2

### Azərbaycan Prezidenti İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib



# 20 Yanvar - şərəf və qəhrəmanlıq tariximiz!

5

### YAP Mərkəzi Aparatında "Səs" qəzetinin baş redaktorunun 50 illik yubileyi münasibətilə görüş keçirilib



4

### Bütün dünya üçün vacib olan DÜNYA İQTİSADİ FORUMU




3

### "Sərəncam inflyasiyanın vurduğu zərərləri kompensasiya edəcək"



10

### İlham və Fərizə: bir sevgi hekayəsi



13

### Araik-Vardanyan qarşıdurması...



12

# “Biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik”

## *Azərbaycan Prezidenti İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib*

**Dünən Azərbaycan Prezidenti İlham Əliyev Davosda bir sıra mühüm görüşlər keçirib. Dövlətimizin başçısı Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) birinci vitse-prezidenti Yurgen Riqterink ilə görüşü olub. Görüşdə ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi, Bankın Azərbaycanda mühüm layihələrdə iştirak etdiyi vurğulandı.**












### Prezident İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 20 Yanvar faciəsi ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib. Paylaşılan fotonun üzərində ”20 Yanvar - Allah bütün şəhidlərimizə rəhmət eləsin!” sözləri yazılıb.










Avropa Yenidənqurma və İnkişaf Bankının Cənub Qaz Dəhlizinin reallaşmasına töhfəsi xüsusi qeyd edildi. Söhbət zamanı perspektiv prioritetlər, o cümlədən nəqliyyat, logistika, informasiya texnologiyaları, bərpaolunan enerji sahələrində əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 19-da Davosda ”Adani Group” şirkətinin təsisçisi və sədri Qautam Adani ilə görüşüb. Görüşdə Azərbaycanın Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin təşəbbüskarı və əsas nəqliyyat-logistika qovşaqlarından biri olduğu vurğulandı, bu xüsusda əməkdaşlığın perspektivləri müzakirə edildi. Həmçinin Şərq-Qərb nəqliyyat dəhlizi kontekstində Azərbaycan ərazisindən keçən Orta Dəhlizin xüsusi əhəmiyyəti qeyd edildi.

Qautam Adani şirkətin Hindistanda və dünyanın müxtəlif bölgələrində limanların idarə edilməsi, nəqliyyat və daşıma sahələrində geniş təcrübəyə malik olduğunu, dünyanın bir sıra ölkələrində bu sahələrdə birbaşa investisiyalarla çıxış etdiyini bildirdi.

Söhbət zamanı Azərbaycanın birbaşa xarici investisiyalar üçün cəlbedici olması, ölkəmizin iqtisadiyyatının inkişafı və bu xüsusda ”Adani Group” ilə neft-kimya, dağ-mədən, metallurgiya sənayesi və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

Görüşdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin həyata keçirilməsi və gələcək əməkdaşlıq üzrə daha təfərrüatlı müzakirələrin aparılmasına dair razılığa gəlindi.

Dünən Prezident İlham Əliyevin Davosda Monteneqronun Baş naziri Dritan Abazoviç ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Monteneqro arasında dostluq münasibətlərinin olduğu qeyd edildi. Ölkələrimiz arasında turizm, investisiyalar və enerji sahələrində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

Dövlətimizin başçısı Cənubi Qafqaz regionundakı vəziyyət barədə məlumat verdi, Ermənistanın müxtəlif yalan məlumatlar əsasında bir sıra beynəlxalq təsisatlarda Azərbaycana qarşı təbliğat apardığını qeyd etdi. Prezident İlham Əliyev, həmçinin Azərbaycan ərazisində Laçın-Xankəndi yolundakı vəziyyət barədə də Monteneqro Baş nazirinə məlumat verdi.

Dritan Abazoviç qeyd etdi ki, Monteneqro hər zaman Azərbaycanı dost ölkə hesab edir. Baş nazir Monteneqronun Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirdi.

Yanvarın 19-da Azərbaycan Prezidenti İlham Əliyev Davosda Dünya İqtisadi Forumunun sədri Klaus Şvab, Avropa İttifaqının (Aİ) büdcə və administrasiya üzrə komissarı Yohannes Han ilə görüşüb. Görüşlərdə bir sıra məsələlər barədə müzakirələr aparılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən ”Avrasiya Orta Dəhlizi: Yoldan magistrala” mövzusunda panel iclasında iştirak edib. Dövlətimizin başçısı qeyd edib ki, tezliklə Bakıda, dəniz limanının yaxınlığında azad ticarət zonası açılacaq. Ümid edirik ki, həmin azad ticarət zonası istehsalat və şirkətlər üçün sərmayə qoyuluşu baxımından münasib məkan olacaq.

Dövlətimizin başçısı qeyd edib ki, əlbəttə, biznes mühitinin yaxşılaşdırılması uğurun əsas amillərindəndir. ”Çünki dünyada bütün ölkələrin, hətta ən inkişaf etmiş dövlətlərin əlavə sərmayəyə ehtiyacı var. Ancaq, sadəcə, biznes mühiti kifayət deyil. Ölkələr arasında münasibətlər nadir vəziyyət yaradır - qlobal miqyasda ən yüksək dostluq şəraiti. Mən Azərbaycan və Gürcüstan, Azərbaycan və Türkiyə, Gürcüstan və Türkiyə, habelə bizim üçtərəfli əlaqələrimizi nəzərdə tuturam. Bugünkü reallıqlar fonunda tranzit ölkəsi olmaq vacibdir. Lakin bizim üçün bunun əhəmiyyəti yeni iş yerləri və yerli istehsalatla bağlıdır.”

Dövlətimizin başçısı bildirib: ”Bu səbəbdən biz iqtisadiyyatımızın şaxələndirilməsi üzərində ciddi işləyirik. Hesab edirik ki, nəqliyyat sahəsi bizə ixracımızı şaxələndirməyə imkan verəcək, çünki biz xidmət ixrac edəcəyik. Bununla yanaşı, Orta Dəhliz üzərində və Şimal-Cənub marşrutu boyunca yerləşmə Azərbaycanda əlavə biznes imkanları yaradır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Davos Dünya İqtisadi Forumu çərçivəsində keçirilən ”Avrasiya Orta Dəhlizi: Yoldan magistrala” mövzusunda panel iclasında da iştirak edib. Dövlətimizin başçısı bildirib ki, bizim üçtərəfli əməkdaşlığımızın bir neçə formatı var - xarici işlər nazirləri, müdafiə nazirləri və iqtisadiyyat nazirləri arasında. Liderlərin də zirvə görüşləri baş tutub. Biz artıq bunun bəhrəsini görürük.

”Biz aydın görməyə başlamışıq ki, burada balansa ehtiyac var, - biz, əlbəttə, enerji layihələrindən başladıq, - istehsalçı, tranzit ölkəsi və istehlakçı arasında balans. Biz hamı üçün uduşlu vəziyyət yaratmağa müvəffəq olduq və maraqların balansı təmin edildi”.

# Bütün dünya üçün vacib olan DÜNYA İQTİSADİ FORUMU







***Son onilliklərin ən mürəkkəb geosiyasi və qlobal iqtisadi vəziyyəti fonunda Davosda Dünya İqtisadi Forumu "Fraqmentasiya olmuş dünyada əməkdaşlıq" devizi altında keçirilir. Qlobal tənəzzüldən, yavaşlayan artımdan, yüksək inflyasiyadan və artan borcdan qaçmağa çalışmalı olan qlobal iqtisadiyyat üçün risklərin, təhlükələrin olduqca yüksək olduğu bir şəraitdə belə bir forumun, Dünya İqtisadi Forumunun keçirilməsi olduqca vacibdir. Ötən əsrin 70-ci illərindən dünya liderləri, iri şirkətlərin top menecerlərini, siyasi və ictimai xadimləri qəbul edən forum bu dəfə də həlli bütün dünya üçün vacib çağırışlarla yadda qalmalı olacaq.***

Bilirik ki, son zamanlar Davos İqtisadi Forumunun ən aktual mövzusu müharibələr və bu müharibələrin yaratmış olduğu çətinliklər, tənəzzüllər olub. Elə ötən il də Davosda keçirilən toplantıda Rusiyanın Ukraynaya təcavüzü, bunun ağır nəticələri, fədasları müzakirə olunub. Bu il yenə də eyni yanaşma tərzi müşahidə olunur və diqqətin müharibənin iqtisadi nəticələrinə, eləcə də mümkün ola biləcək tənəzzülə yönəldiyni görməkdəyik. Bir sözlə, müzakirələrin mövzularının demək olar ki, dəyişməidiyinin hər kəs fərqindədir.

Hər il Davosda keçirilən Dünya İqtisadi Forumu zamanı həmin forumda dünya siyasət və biznes liderlərinin, məşhurların, ümumiyyətlə, tanınmış ictimai fəalların orada iştirak etdiyinin şahidi oluruq. Bu il də eyni ilə həmin şəxslərin timsalında məşhurların iştirak etdiyini görürük. Onların bu forumda iştirakı adi bir vaxta təsadüf etmir. Bu, qlobal iqtisadiyyatın yüksək inflyasiya ilə qarşılaşdığı, enerji böhranı ilə üzləşildiyi, müharibə ilə əlaqədar tədarükün kəsildiyi, Çində koronavirus pandemiyasının yenidən canlanması səbəbindən çətinliklərin, problemlərin ortaya çıxdığı bir vaxtda keçirilir. Deməli, müzakirələr zamanı bu məsələlərin də həlli barədə fikirlərin, yolların səsləndiriləcəyi gözlənilməndir. İndi artıq dünya ictimaiyyəti qəti şəkildə əmindir ki, müzakirələr hansı istiqamətdə, hansı mövzuda olacaq və hətta gözləntilər barədə də proqnoz vermək olar.

Bəzən forumlarda kimlərin iştirak etməsi hər kəsdə maraq hissi doğurur. Bu da əbəs yerə deyil. Əvvələ ona görə maraq doğurur ki, müzakirəsi aparılacaq məsələlərin hansı səviyyədə müzakirə mövzusu olacağı diqqəti cəlb edir. Məsələn, Davosa gələnlər arasında Almaniya kansleri Olaf Şoltsun, Avropa Komissiyasının sədri Ursula fon der Leyenin, NATO-nun Baş katibi Yens Stoltenberqin, Ümumdünya Səhiyyə Təşkilatının baş direktoru Tedros Adhanom Qebreyesusun olması müzakirə olunacaq məsələlərin nə dərəcədə vacibliyindən və bu müzakirələrə olan marağın, diqqətin hansı səviyyədə olduğundan xəbər verir. Yəni, hər kəs çox yaxşı başa düşür ki, Dünya İqtisadi Forumu dediyimiz bu foruma həmin mötəbər şəxslərin qatılması müzakirələrin nə dərəcədə aktual olduğunu ortaya qoyur. Xüsusən də Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Kristalina Georgiyevanın bu ilki forumda iştirakı heç kəsin diqqətindən yayınmır. Hər kəs yaxşı başa düşür ki, Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktorunun foruma qatılması həyəcan təbilinin olacağı barədə anons verməyə əsas yaradır. Bu da təsadüfi deyil. Qeyd etdiyimiz kimi, bu mürəkkəb zamanda, ələlxüsus, istər artıq geridə qalmış olsa belə pandemiyanın bir zaman vurduğu zərər, istərsə də son dövrlərin müharibələri, xüsusən də Rusiya-Ukrayna müharibələri tənəzzülə səbəb olan məqamlardır və bütün dünya bunun acısını dadmaqdadır. Elə buna görə də həmin tənəzzülün dünya iqtisadiyyatına zərbəsi də təkzib edilən deyil və bu zamanda məhz Beynəlxalq Valyuta Fondunun sərəncamçı direktoru Kristalina Georgiyevanın təşrif buyurması bir sıra məqamlar barədə düşünməyə əsas verir. İlk öncə hər kəs dərk edir ki, bu tənəzzül Beynəlxalq Valyuta Fonduna öz mənfi təsirini göstərib və hələ də göstərməkdədir ki, fondun sərəncamçı direktoru bu forumdadır. Digər tərəfdən də axı, reallıqlar göz önündədir və bunu dərk etmək üçün həmin xanımın iştirakı və dedikləri bir qədər də hərəkətverici olmuş olur. "2023-cü il bütün dünya üçün çətin il olacaq. Əsas məsələ ondan ibarətdir ki, biz iqtisadiyyatları inkişaf etdirmək və iqlimimiz naminə yaxşı olan dəyişiklikləri sürətləndirmək üçün fürsətlərimizdən istifadə etməliyik. Beynəlxalq Valyuta Fondunun yaxşı nəticələr üçün bir güc vasitəsi olduğu barədə məsuliyyətimizi dərk edirik", deyən fondun sərəncamçı direktoru Kristalina Georgiyeva bunun-la müzakirələrin vacibliyini vurğulayıb və etiraf edib ki, həyəcan təbili artıq çoxdan çalınıb və bütün dünya 2023-cü ilin çətin il olacağının fərqindədir, buna hazır da olmalıdır.

Baxmayaraq ki, hələ başa çatmayıb, Dünya İqtisadi Forumunda, artıq artan qlobal yaşayış xərcləri ən böyük ani risklər kimi göstərilib və bunun son illik risk qiymətləndirməsində pandemiya və Rusiyanın Ukraynaya təcavüzü nəticəsində yarandığı vurğulanıb. Həmçinin enerji, eləcə də ərzaq təchizatında yaranan problemlərin hələ bundan sonra daha iki il davam edəcəyi ehtimal edilir və buna görə də müzakirələrə böyük ehtiyac duyulduğu daim nəzərə çatdırılır. "İqtisadi, ekoloji, sosial, eləcə də geosiyasi böhranlar son dərəcə gözlənilməz və qeyri-müəyyən bir gələcəkdən xəbər verir. Bu problemlərin həlli üçün 50-dən çox ölkənin liderləri ilə "Fraqmentasiya olunmuş (parçalanmış) dünyada əməkdaşlıq" mövzusunda beş günlük görüşlə bir araya gəlirik", deyən Davos İqtisadi Forumunun təsisçisi Klaus Şvab isə foruma toplaşmanın vacibliyinə və əhəmiyyətinə diqqəti cəlb edib.

Həqiqətən də dünyanın mənzərəsinə nəzər saldıqda bir çox həqiqətlər diqqətdən yayınmır. Bələki, Ukraynadakı müharibə, bunun da ardınca, yaxud bəhanəsi ilə Qərbin Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar görünməmiş enerji çatışmazlığına çoxdan səbəb olub. Bunu bütün Avropa artıq həyəcan təbili ilə bəyan da edib. Qoca Qitədə enerji məsələləri ilə bağlı problem, çətinlik, bir sözlə böhran heç kim üçün sirr deyil. Əvvələ ona görə ki, hadisələrin gedişi bunu göstərir. Digər tərəfdən də axı enerji təchizatı ilə bağlı Avropa İttifaqı ölkələri çoxdandır ki, dünyaya səs salıblar və bunu bilməmək mümkün deyil. Bu enerji böhranı özü də təkcə Avropa üçün xarakterik sayılmır. Təsiri də təkcə Avropa ölkələrinə aid deyil axı. Məsələn, enerji məsələləri ilə bağlı reallıqlar inflyasiyaya da təsirsiz ötüşməyib, özü də bütün dünyada bu müşahidə olunur. İş o yerdədir ki, ABŞ və Avrozona kimi inkişaf etmiş bazarlarda inflyasiyanın özünün pik həddinə çatdığı etiraf olunur və hələ bu vəziyyətdə qalacağı da proqnozlaşdırılır. Məhz mərkəzi bankların aqressiv şəkildə faiz dərəcələrini artırmaq niyyətləri də buradan qaynaqlanır. Çünki vəziyyət onları buna məcbur edir. Bu da öz növbəsində əvvəlcə, iqtisadi durğunluq mərhələsində yenidən maliyyələşdirmə xərclərinin artmasına, ardınca da birbaşa olaraq qlobal borc böhranı riskinin artmasına səbəb ola biləcəyi gözlənilir. Bu ilki Davos forumunda 56 maliyyə naziri ilə yanaşı, əvvəlkindən daha çox, dəqiq desək, 19 mərkəzi bank direktorunun, dünyanın ən böyük şirkətlərindən olan 600 CEO menecerin, 1500 biznes liderinin iştirak etməsi məsələnin nə dərəcədə aktuallığını göstərir. Forumda iştirak üçün 116 milyarderin qeydiyyatdan keçməsi və iş adamlarının böyük əksəriyyətinin də amerikalılar olması böhranın qlobal xarakter daşıdığını, hər kəsə aid olduğunu və təsirsiz ötüşmədiyini açıb ortaya qoyur.

Bu il Davos İqtisadi Forumunda 130 ölkəni əhatə edən 2700-dən çox dövlət, özəl və vətəndaş cəmiyyəti liderlərinin iştirak etməsi və bu foruma 52 dövlət, eləcə də hökumət başçılarının qatılması həm müzakirələrin nə dərəcədə ciddiliyindən, həm də bu müzakirələrin bütün dünyaya aid olduğundan xəbər verir. Bir sözlə, dünya iqtisadiyyatının, ümumilikdə dünya düzəni ilə bağlı məsələlərin çətin durumda olduğu etiraf edilir və həlli yolları düşünülür deyə bir araya toplanılır. Ümid edilir ki, bu platforma qeyd edilən mövzular üzərindən dünya liderlərinin, ekspertlərin və digər təsir dairəsi geniş olanların cəlb edilməsi ilə təşkili baş verən hadisələrə adaptasiya olunmağa və müsbətə doğru həll yollarının tapılmasına mütləq töhfə verəcəkdir. Deməli, qarşılaşılan məsələlər bütün dünya üçün həlli vacib hesab olunur və bunların araşdırılması, çıxış yolu tapılması öz aktuallığına görə ön sırada durur. Bir sözlə, Davos İqtisadi Forumunun nə dərəcədə vacib olduğu artıq öz təsdiqini dəfələrlə, özü də müxtəlif istiqamətlərdə tapıb.

Bununla yanaşı bir sıra məqamlar diqqəti cəlb etməyə bilməz. Məsələn, bu forumda Azərbaycanın iştirakı heç də sıradan bir hadisə deyil. Avropanın enerji böhranı ilə üzüzə olduğu bir zamanda, ölkəmizin isə enerji təchizatçısı olaraq bütün dünyada qəbul edildiyi bir məqamda Azərbaycan həmin forumda iştirakı heç də təsadüfi sayıla bilməz. Artıq qeyd olunduğu kimi, enerji böhranı ilə üzləşildiyi etiraf edildiyi bir vaxtda bunun müzakirəsini təşkil etməyi bütün dünya vacib hesab edirsə, deməli, Azərbaycanın rolu da burada, bu məsələnin həllində kifayət qədər nəzərə alınır. Deməli, ölkəmiz bu məsələlərdə də artıq söz sahibidir və dünya ölkələri, xüsusən də Avropa üçün maraqlı tərəfdir. Eyni zamanda Azərbaycanın bu foruma dəvət alması və iştirakı özü belə bu şərəfə nail ola bilməyənlərlə müqayisəyə belə gəlmədiyindən xəbər verir. Nəzərə almaq lazımdır ki, Ermənistan özünü dünyanın bir parçası, guya ki, demokratiyanın olduğu və buna görə nəzərə alındığı ölkə kimi nə qədər göstərsə də, bu gün bunun əksini görmüş oluruq. Özü də təkcə biz yox, bütün dünya görür ki, Dünya İqtisadi Forumuna Ermənistan dəvət belə bəlkə də almayıbsa, deməli, həmin ölkənin mövqeyi də, onun məqamı da bəllidir və heç nəzərə də alınmır. Digər tərəfdən axı, bu işğalçı ölkə nə ilə, hansı təklifləri, hansı töhfələri ilə belə bir mötəbər foruma qatıla bilər? Azərbaycanın isə, bunun əksinə olaraq, töhfələr verəcəyini bütün dünya nəinki başa düşür, hətta etiraf da edir, üstəlik buna görə ölkəmizə olan maraq yenə də göz önündədir və özünü göstərir. Bu maraq isə gələcəkdə istənilən sahədə, xüsusən də iqtisadi sahədə, əlaqələrin daha da artması istiqamətində öz bəhrəsini verməlidir və verəcək də. Sözsüz ki, ölkəmizə olan maraq, xüsusən enerji baxımından Azərbaycanın maraqlı tərəf, tərəfdaş olaraq qəbul edilməsi ölkəmizə investisiya axını deməkdir və bunun da bizim öz maraqlarımıza uyğun olduğu günün reallığıdır. Həqiqətən də Davosda keçirilən bu ilki forum da, bu ilki Dünya İqtisadi Forumu da eyni ilə bütün dünya üçün olduğu kimi, Azərbaycanın özü üçün də çox vacib və əhəmiyyətlidir.

***İnam Hacıyev***

# "Avropa Şurası Nazirlər Komitəsinin sədrini qərəzsiz olmağa çağırırıq"

*XİN Avropa Şurası Nazirlər Komitəsinin sədrinin Laçın yolu ilə bağlı bəyanatına cavab verib*



**Yanvarın 19-da İslandiyanın xarici işlər naziri, Avropa Şurası Nazirlər Komitəsinin sədri Tordis Kolbrun Reykfyörd Gilfaddottirin ((Thurdns Kolbrcn Reykfjörd Gylfaduttir)) Laçın yolu ətrafında yaranmış vəziyyətlə bağlı yerdəki reallıqları əks etdirməyən bəyanatı təəssüf doğurur.**

Azərbaycanın faydalı qazıntı yataqlarının qanunsuz istismarının, onların qeyri-qanuni şəkildə Ermənistana daşınması və yalnız humanitar məqsədlər üçün nəzərdə tutulmuş Laçın yolundan sui-istifadə hallarının qarşısının alınması tələbi ilə Laçın yolunda dinc etirazlara bu cür münasibət anlaşılan deyil. Azərbaycan ərazisində qeyri-qanuni iqtisadi və hərbi fəaliyyətə qarşı etirazlar Azərbaycan vətəndaşlarının hüququdur və buna hörmətlə yanaşılmalıdır. Bu kimi bəyanatlar bölgədə sülh və əmin-amanlığa töhfə verməməklə yanaşı gərginliyin artmasına gətirib çıxarır.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin Avropa Şurası Nazirlər Komitəsinin sədrinin Laçın yolu ətrafında vəziyyət ilə əlaqədar bəyanatına dair şərhində qeyd edilib.

Şərhdə qeyd edilib ki, Xarici İşlər Nazirliyinin əvvəlki bəyanatlarında da qeyd edildiyi kimi, guya Laçın yolunun "bağlanması", bölgədə "humanitar fəlakət" yarandığı barədə iddialar əsassızdır. Ötən müddət ərzində Rusiya sülhməramlı kontingentinin və Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) konvoylarının, erməni təcili tibbi maşınları daxil olmaqla 800-ə yaxın nəqliyyat vasitəsinin heç bir maneə olmadan yoldan keçməsi bir daha sübut edir ki, yol bağlı deyil. Bununla yanaşı, yerli sakinlərin istifadəsi üçün malların tədarükü və ya zəruri tibbi xidmətlərin göstərilməsi ilə bağlı heç bir maneə mövcud deyildir. Diqqətə çatdırılıb ki, Avropa Şurası Nazirlər Komitəsinin sədri tərəfindən öz evlərindən köçkün düşmüş yüz minlərlə azərbaycanlının acınacaqlı humanitar vəziyyətinə, beynəlxalq humanitar hüququ açıq şəkildə pozan Ermənistanın hərbi cinayətlərinə, Vətən müharibəsindən sonra 282 azərbaycanlının mina qurbanı olması ilə nəticələnən və Laçın yolundan sui-istifadə ilə ərazilərimizdə 2021-ci il Ermənistan istehsalı minalar yerləşdirməklə davam edən mina təhdidlərinə və digər qanunsuz fəaliyyətlərinə bu günə kimi münasibət bildirilməməsi də sual doğurur. Bu növbəti dəfə ikili standart və selektiv yanaşmanın göstəricisidir. Avropa Şurası Nazirlər Komitəsinin sədrini qərəzsiz olmağa, bölgədə sülh və əmin-amanlığa xələl gətirəcək hərəkətlərdən və açıqlamalardan çəkinməyə çağırırıq.

# YAP Mərkəzi Aparatında "Səs" qəzetinin baş redaktorunun 50 illik yubileyi münasibətilə görüş keçirilib

**Yanvarın 19-da Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyevin 50 illik yubileyi münasibətilə görüş keçirilib.**



Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib. YAP Sədrinin müavini bildirib ki, Bəhruz Quliyev vətənpərvər şəxsiyyət və istedadlı qələm sahibi kimi Heydər Əliyev ideyalarının gənc nəslə aşılanması, Prezident İlham Əliyevin siyasətinin təbliği və Azərbaycan jurnalistikasının inkişafı istiqamətində





öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirərək səmərəli fəaliyyətini bu gün də uğurla davam etdirir: "Sağlam ictimai rəyin formalaşmasına, milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasına xidmət edən fəaliyyətiniz hər zaman yüksək qiymətləndirilib. Bir sıra mükafatlara layiq görülməyiniz, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Əməkdar jurnalist" fəxri adı ilə təltif olunmağınız əməyinizə verilən yüksək dəyərin bariz nümunəsidir".

Göstərilən diqqətə və ünvanına söylənilən xoş sözlərə görə təşəkkürünü bildirən Bəhruz Quliyev Azərbaycanı tərəqqi və Zəfər zirvəsinə yüksəldən Heydər Əliyev ideyalarının, Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin və Yeni Azərbaycan Partiyasının uğurlu fəaliyyətinin yorulmaz təbliğatçısı olmaqdan qürur duyduğunu bildirib. O, bundan sonra da üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

# KORSİKA PROBLEMİ:
## FRANSA ÖZÜNÜ TƏKZİB VƏ İFŞA EDİR

Təhlil




Geosiyasi iqlim dəyişikliyinin müşahidə olunduğu bir vaxtda Fransanın ənənəvi mərəzi, yaxud köhnə xəstəliyi yenidən baş qaldırıb. Bu ölkənin rəsmiləri yenidən separatizm əhvalına bürünüblər. Daha dəqiq desək, dünyanın müxtəlif ölkələrində və bölgələrində bölücülüyə dəstək verməklə varlıqlarını xatırlatmağa çalışırlar. Amma unutduqları və xatırladıldığı zaman yoxa çıxdıqları bir məqam var: Korsika problemi. Paradoksal haldır ki, korsikalıları ölkəni bölməkdə - parçalamaqda ittiham edən Fransa hakimiyyəti öz sərhədlərindən kənarda separatizmə dəstək verir.

Parisin bir müddət əvvəl Qarabağdakı terrorçu və bölücülərə dəstək xarakterli bəyanatlarla çıxış etməsi belə mənfi nümunələrdəndir. Bəs reallıq nədən ibarətdir? Özgə gözündə tir axtaran Parisin öz gözündə görmədiyi nədir?

Napoleon Bonapartın doğulduğu, dilinə və mədəniyyətinə görə Fransanın digər bölgələrindən fərqlənən, coğrafi baxımdan İtaliyaya daha yaxın olan Korsika adası bu günə qədər qaynar ictimai-siyasi proseslərə ev sahibliyi edib, mərkəzi hakimiyyətin siyasi hədəfinə çevrilib. Bu gün Fransanın 18 bölgəsindən biri sayılan, 350 min əhalisi olan ada məhdud muxtariyyəti təmin edən xüsusi regional status ilə idarə olunur, hakimiyyət səlahiyyətləri millətçilərin əlində cəmləşib. Fransanın ən yoxsul bölgəsi olan Korsikanın əhalisinin tələbləri bəllidir:

- muxtariyyətin genişləndirilməsi;
- siyasi məhbuslara amnistiya verilməsi;
- Fransa Konstitusiyasında Korsika üçün xüsusi yer ayrılması.
- "Korsika dili"nin Fransa konstitusiyasında rəsmi dil kimi təsbit olunması;
- Korsikada yalnız ada sakinlərinin mülk sahibi olmasına icazə verilməsi və s.

Fransa hakimiyyəti isə problemi aradan qaldırmaqda, yaxud məsələləri tənzimləməkdə acizdir. Ona görə də medianın və Fransa ictimaiyyətinin tənqid oxu hakimiyyətə tuşlanıb. Məsələn, "Mediapart" yazır ki, prezident Makronun məsələyə yanaşması qüsurludur. Sitat: "Çünki millətçilərin tələbləri illərdir bilinsə və hər seçkidə təsdiqlənsə də, hökumət konkret həll yolu müəyyənləşdirməyib, vaxt uzatmaqla məşğul olub. Ta ki zorakılıqlar baş verənə qədər... Bununla hökumət özünü ayağından vurur".

"Le Monde" qəzetinin də yanaşması bənzərdir. Üstəlik, təkzibedilməz bir fakt aşkar ifadə olunur. Sitat: "Korsikalıların hüquqlarını heçə sayan hakimiyyət başqa ölkələrdə eyni iddia və ideyalara dəstək verir. Qəribə deyilmi?".

"Le Figaro" nəşri isə məsələyə aydınlıq gətirir: "Korsikalı millətçilər tam müstəqillik tələbi irəli sürmürlər, onlar maddi cəhətdən asılı olduqları Fransadan sadəcə öz hüquqlarının artırılmasını istəyirlər. Paris isə hətta bu tələblərə belə dözümsüz yanaşır".

Beləliklə, məsələnin mahiyyəti aydındır: separatizm adlanan bir probleme iki yanaşma, yaxud eyni məsələyə fərqli münasibət Avropanın siyasi lokomotivi adlandırılan, yenidən geosiyasi güc mərkəzinə çevrilmək iddiasında olan bir ölkə üçün üstünlük deyil, çatışmazlıqdır. Dünyanın hansı nöqtəsində olmasından asılı olmayaraq, separatizm qəbuledilməz və yolverilməzdir.

Paris bəzi suallara cavab verməlidir. Məsələn, digər regionlarda, xüsusilə Qarabağdakı kiçik separatçı qrupların taleyindən narahat olan Fransa hansı səbəbdən 300 mindən çox korsikalının vəziyyətindən nigaran deyil? Yaxud Fransa hakimiyyəti bölücülüyü bu qədər çox sevirsə, nə üçün dəstəyini korsikalı separatçılardan əsirgəyir?! Məgər belə hallar Korsikada separatizm adlandırılmalıdır, Qarabağda isə yox?!

Nəhayət, Fransada hakimiyyət olimpində yer alan siyasi qüvvələr nə vaxtsa dırnaqarası - qondarma status məsələsindən danışaraq ərazi bütövlüyünə zidd mövqe tutacaqlarsa... O zaman ilk növbədə, dönüb Korsika məsələsinə baxmalı, "xalqların öz müqəddəratını təyin etməsi" ideya və iddialarını məhz orada reallaşdırmalıdırlar. Necə deyərlər, "ideya sahibinə fayda verər".

# 20 Yanvar - şərəf və qəhrəmanlıq tariximiz!

Milli məfkurənin inkişafına təkan vermiş hadisələrdən olan 20 Yanvar Azərbaycan tarixində təkcə faciə deyil, Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 33 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədiblər. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi. 20 yanvar faciəsinin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini










qırmaq və insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi və milli qürurumuzu qıra bilmədi. Xalqa qarşı törədilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxardı. Əslində, imperiyanın Bakıda qanlı hadisəni törətməklə, İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu. Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın "A" təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü və suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı. M.Qorbaçovun fərmanı ilə paytaxtımızda fövqəladə vəziyyət elan olundu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi.

### 20 YANVAR FACİƏSİNƏ DÖVLƏT SƏVİYYƏSİNDƏ TAM SİYASİ-HÜQUQİ QİYMƏT

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən, M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi. 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Dahi Öndər Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi. Ümummilli Lider Heydər Əliyev, 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də, bir sıra mühüm tədbirlər həyata keçirdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə, bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin və əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir. Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı Vahid Kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə Xatirə-Kompleksin yaradılması oldu. Prezident İlham Əliyevin tapşırığı ilə Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində Memorial Abidə-Kompleks yaradıldı. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub.

### BÜTÜN ŞƏHİDLƏRİMİZİN RUHUNUN ŞAD OLDUĞU GÜN

Bu gün xalqımız 20 Yanvar hadisələrinin 33-cü ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir. 2020-ci ilin noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanına gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etməsi və buradan Azərbaycan xalqına müraciət etməsi şəhidlərimizə olan ehtiram idi. Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edərək "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!" dedi. O gün bütün şəhidlərimizin ruhu şad oldu.

### MÜSTƏQİLLİYƏ GEDƏN YOL SƏNƏT VƏ MUSİQİMİZDƏ

20 Yanvar hadisələrin xalqın tarixi yaddaşında həkk olunmasında mədəniyyətin rolu danılmazdır. Əməkdar rəssam Arif Ələsgərovun "20 Yanvar" tablosu, rəssam Bayram Qasımxanlının "Faciələrimiz" (triptix), Mikayıl Abdullayevin "Nakamların dəfni", Rasim Babayevin "Təcavüz", Arif Hüseynovun "Qara tağlı natürmort", Arif Ələsgərovun "20 Yanvar", İsmayıl İsmayılovun "Haqq tərəzisi", Oqtay Quliyevin "Matəm", Bayram Qasımxanlının "Faciələrimiz" (triptix) rəsmləri həsr olunub. Vasif Adıgözəlovun Fikrət Qocanın sözlərinə bəstələdiyi "Bir şərqi de", Hacı Xanməmmədovun "Əlimdə sazım ağlar", Oqtay Rəcəbovun Məmməd İsmayılın sözlərinə bəstələdiyi "Qana dönən qərənfillər", Emin Sabitoğlunun Bəxtiyar Vahabzadənin sözlərinə bəstələdiyi "Şəhidlər ağısı", Mehriban Əhmədovanın Məmməd Arazın sözlərinə yazdığı "Ana millət, ata millət, ağlama", Sərdar Fərəcovun "Matəm harayları" simfonik lövhəsi, Arif Mirzəyevin "Yanvar passionları" matəm messası, Oqtay Rəcəbovun "Çingiz" oratoriyası və s qeyd etmək olar. Azərbaycan kinematoqrafında 20 Yanvar hadisəsinə "Qanlı Yanvar", "Boz qurdun harayı", "Azadlığa gedən yollar", "Bakıda insan ovu", "Şəhidlər və qazilər", "Qanlı Bakı", "Matəm" filmləri həsr olunub. Hadisədən sonra Bəxtiyar Vahabzadə, Məmməd Aslan, Qabil, Xəlil Rza, Fikrət Qoca və başqalarının elegiyaları, etiraz ruhlu şeirləri yazılıb.

Əlbəttə ki, gənclərimiz tarixi həqiqətləri bilməlidirlər. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacibdir. Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar faciəsi gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır. Bu tarix Azərbaycanın sonrakı taleyində əhəmiyyətli rol oynadı.

*Nəzakət ƏLƏDDİNQIZI*




# “20 Yanvar faciəsi xalqımızın qəlbində ucalmış nəhəng bir vətənpərvərlik abidəsidir”

Gənclərimiz tarixi həqiqətləri bilməlidir. Yaxın tariximizin öyrənilməsi və araşdırılması vacib vəzifədir. 1990-cı ilin 20 Yanvar faciəsi də öyrənilməli və gələcək nəsillərə olduğu kimi çatdırılmalıdır. Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı ilin 20 Yanvar hadisələri tariximizin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifəsi, Azərbaycanın sonrakı taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır. 20 Yanvar hadisələri Azərbaycan xalqına qarşı törədilmiş cinayətdir. Bakıda gecəyarı fövqəladə vəziyyət tətbiq edilmiş, əhali xəbərdar edilməmişdir. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirmiş, 20 nəfəri ölümcül yaralamışlar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə yanvarın 20-də və sonrakı günlərdə Bakı şəhərində 21 nəfər öldürülmüşdür. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Ümumilikdə 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir. Bəs, Azərbaycan gəncləri 20 Yanvar həqiqətlərini dünyaya necə çatdırıb? SİA mövzu ilə bağlı gənclər təşkilatları sədrləri arasında sorğu edərək onların fikirlərini öyrənib.

**YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov:** ”1990-cı ilin 20 Yanvar hadisəsi müasir Azərbaycan tarixi üçün çox böyük və vacib bir tarixdir. 33 il öncə törədilən həmin qətliam Sovet hərbi birləşmələri, Sovet rəhbərliyi tərəfindən Azərbaycan xalqının müstəqilliklə bağlı olan iradə və arzusunun



məhv edilməsinə, sındırılmasına hesablanmışdır. Lakin bu qətliam öz məqsədinə çata bilmədi. Azərbaycan xalqı öz müstəqilliyi ilə bağlı olan qəti arzusu və məqsədini bütün dünyaya nümayiş etdirdi.

Təbiidir ki, bu hadisələr baş verərkən Azərbaycan informasiya blokadasında idi. Belə bir çətin məqamda Azərbaycanda baş verən hadisələrin, bu qətliamın dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün ən böyük və ən cəsarətli addım ümummilli lider Heydər Əliyev tərəfindən atıldı. Elə Moskva şəhərində birbaşa olaraq Azərbaycanın daimi nümayəndəliyinə gedən Ulu Öndər 20 Yanvar hadisələri ilə bağlı bütün dünyanı məlumatlandırdı, cəsarətli çıxışı ilə elə hadisələrin əmri gələn mərkəzdən Moskva şəhərindən bütün dünyaya Azərbaycan xalqına qarşı törədilən bu qətliamla bağlı geniş bir məlumat verdi. Təbii ki, bu özü-özlüyündə 20 Yanvar hadisələrinə istər həmin hadisələr baş verən vaxtı, eyni zamanda da daha sonra Ulu Öndər Azərbaycana qayıtdıqdan sonra verdiyi qərarla bu günü əbədiləşdirməsi, Azərbaycanın tarixi üçün olduqca vacib rol oynadı.

33 il keçməsinə baxmayaraq biz bu gün də 20 Yanvar hadisələrini böyük bir hüzn və qürurla xatırlayırıq. Çünki bu eyni zamanda Azərbaycan xalqının iradəsinin, müstəqillik arzusunun necə böyük olduğunu və bu qətliama baxmayaraq necə möhkəm dayandığını nümayiş etdirirdi. Təbiidir ki, bundan sonra baş verən hadisələr də Azərbaycanda həyata keçirilən birbaşa olaraq istər ümumilli lider Heydər Əliyev tərəfindən, istərsə də Prezident cənab İlham Əliyev tərəfindən siyasət də bu günün əbədiləşməsində, yaddaşlarımızda qalmasında, bütün dünya ictimaiyyətinə çatdırılmasında vacib rol oynadı. Təbiidir ki, bu istiqamətdə Azərbaycan gəncliyinin üzərinə də hər zaman böyük vəzifə düşüb və bu gün də, sabah da Azərbaycan gəncliyi 20 Yanvar faciəsinin bütün dünyaya çatdırılmasında bunun başvermə səbəblərində və Azərbaycanın 20 Yanvar günü verdiyi şəhidlərlə bağlı bütün məlumatları dünya ictimaiyyətinə daim çatdırmaqda vacib rol oynayırlar. Bu, informasiya mübarizəsinin bir parçasıdır.

Cənab Prezidentin ötən il fevral ayının 2-də Azərbaycan Gənclər Gününə həsr olunmuş forumda nitqində də qeyd etdiyi kimi, informasiya müharibəsi davam edir və Azərbaycan gəncliyi bu informasiya müharibəsinin aparıcı bir parçası olaraq unutmamalı və daim xatırlamalıdır ki, Azərbaycanla bağlı vacib hadisələrin, bizə qarşı törədilmiş haqsızlıqların, ikili standartların dünya ictimaiyyətinə çatdırılması birbaşa olaraq Azərbaycan gəncliyinin ən ümdə vəzifələrindən biridir. Bu yolda Azərbaycan gəncliyi durmadan çalışmalıdır. Bu yolla qazanılan hər bir uğur ondan sonra qazanılacaq daha böyük bir uğurla davam etdirilməlidir. Mən əminəm ki, Azərbaycan gəncliyi üzərinə düşən bu vəzifəni tam olaraq anlayır və bu istiqamətdə lazım olan addımlar bundan sonra da atılacaqdır”.

**NAYORA-nın sədri Azər Əliyev:** ”Yaddaşımıza əbədi həkk olunmuş 20 Yanvar hadisəsi tariximizdə qəhrəmanlıq və faicəni özündə əks etdirən nadir səhifə, Azərbaycanın taleyinə əhəmiyyətli təsiri olan dönüş anıdır. Bu hadisədən ölkənin müstəqilliyi ideyası ümummilli amala çevrildi, həmçinin dünya azərbaycanlıları yeni siyasi tariximizdə milli faciəmizin dünya ictimaiyyətinə çatdırılması və nəticələrinin aradan qaldırılması naminə yaşadıqları



ölkələrdə təşkilatlanmağa başladılar. Nəticədə 20 Yanvar Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizənin rəmzinə çevrildi.

Azərbaycan xalqı daima tarix boyu bir çox sınaqlardan qalibiyyətlə çıxmağı bacarıb, parlaq qələbələrimiz və acı nəticələr verən qarşıdurmalarımız olub. Lakin xalqımız heç zaman nə sarsılıb, nə də ruhdan düşüb. Öz gücünə inanıb, qüdrətinə, vətənpərvər övladlarına arxalanıb. Buna ən bariz nümunə 44 günlük Vətən Müharibəsidir, onun nəticəsidir ki, bu gün Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı altında torpaqlarımızı işğaldan azad edən xalqımız artıq daha böyük ruh yüksəkliyi və məğrurluq hissi ilə Şəhidlərimizin əziz xatirəsini uca tuturlar. Biz heç vaxt qəhrəmanlarımızı, igid Vətən övladlarının fədakarlıqlarını unutmamalıyıq.

Mən əminliklə deyə bilərəm ki, bu gün 20 Yanvar hadisəsi bu miqyasda tanınırsa Ulu Öndər Heydər Əliyev sayəsindədir. Çünki hadisəyə ilk siyasi reaksiya və ilk hüquqi qiymətin verilməsi Ümummilli lider Heydər Əliyevin siyasi iradəsinin nəticəsidir. Ulu öndər Heydər Əliyevin yolunu uğurla davam etdirən cənab Prezident İlham Əliyev də şəhidlərin xatirəsinin uca tutulmasına, şəhid ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir. Cənab Prezidentin fərmanı ilə 20 Yanvar Faciəsindən əziyyət çəkənlər üçün ”20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi də bariz nümunədir.

Biz də öz növbəmizdə gənclər, gənclər təşkilatları olaraq üzərimizə düşən öhdəlikləri dərk edir, Şəhidlərimizin əziz xatirəsini daima uca tutur və bu istiqamətdə hər zaman fəaliyyətlər həyata keçiririk. Bu il 20 Yanvar faciəsinə həsr olunmuş bir neçə tədbirimiz planlaşdırılıb. İlk olaraq ”20 Yanvar Cəmiyyəti”nin üzvləri, həmçinin faciənin şahidləri ilə görüş keçirdik. Gənclər təşkilatının rəhbər və nümayəndəsinin iştirakı ilə baş tutan görüşdə 20 Yanvar şahidləri öz şahidi olduqları hadisələri bölüşüb və iştirakçıların ünvanladıqları sualları cavablandırdılar. Daha sonra hər zaman olduğu kimi, ”Şəhidlər Xiyabanı”na gənclər təşkilatlarının rəhbər və nümayəndənin iştirakı ilə ziyarət təşkil olunaraq onların əbədi ruhları yad olunacaq. Həmçinin sosial media hesablarında 20 Yanvar həqiqətlərinin ictimaiyyətə çatdırılması üçün onlayn kampaniya başladılacaq.

Sona doğru yaxınlaşarkən fikirlərimi Ulu Öndər Heydər Əliyevin ”Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir” ifadəsi ilə yekunlaşdırmaq istəyirəm. Gənclər millətin gələcəyinin, inkişafının təməl daşıdır. Hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların hazırlığından, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu gün biz tam əminliklə deyə bilərik ki, Azərbaycan gənci öz üzərlərinə düşən missiyanın öhdəsindən gəlir, dövlət müstəqilliyimizin qorunması üçün hər daim hazır olduğunu sübut edir.

Sonda Allahdan bütün şəhidlərimizə rəhmət diləyirəm, ruhları şad olsun!”.

**”İrəli” İctimai Birliyinin sədri Şahin Rəhmanlı:** ”Bu gün 20 Yanvar faciəsindən 33 il ötür. Biz Qanlı Yanvar günü 147 şəhid verdik, yaralılarımızın sayı isə 700 - dən çox idi. Həmin vaxt Sovet Ordusunun sərt müdaxiləsi mərkəzi hakimiyyət tərəfindən sıxışdırılmaya etiraz edən azərbaycanlıları cəzalandırmaq yanaşı, həm də artan milləţçi hərəkatları və müstəqilliyə cəhd edə biləcək istənilən Sovet Respublikası üçün dərs idi. Lakin bu taktika



digər sovet respublikalarında olduğu kimi, Azərbaycanda millətçilik hərəkatını və müstəqillik tələbini söndürmədi, əksinə alovlandırdı. Vətənimizin şərəf və qürurunu qoruyan, şücaət və qəhrəmanlıq abidəsi olan həmvətənlərimizin qanın axıdılması Azərbaycan xalqının müstəqillik arzusu daha da alovlandı. ”20 Yanvar gününü xatırlayarkən hər birimiz eyni zamanda böyük iftixar hissi keçiririk. Çünki xalqımız həmin təcavüz qarşısında özünün əyilməzliyini, sarsılmazlığını bütün dünyaya sübut etdi”.- deyirdi Ümummilli Lider Heydər Əliyev. Elə hadisənin sabahı günü Sovet hakimiyyətinin yaratdığı informasiya blokadasını da ilk qıran məhz o oldu. Ümummilli Lider Heydər Əliyev SSRİ xüsusi xidmət orqanlarının ciddi nəzarəti altında olmasına, özü və ailə üzvlərinin həyatına ciddi təhlükələrə baxmayaraq, 1990-cı ilin yanvar ayının 21-də Azərbaycan SSR-in Moskvadakı nümayəndəliyinin binasında sovet və xarici ölkə jurnalistləri üçün mətbuat konfransı keçirdi.

İndiki gənclər 20 Yanvar faciəsinin canlı şahidi olmayıblar, lakin dövlət gənclər siyasətinin ardıcıl icra edilən proqramları, kütləvi informasiya vasitələrinin maarifləndirilməsi, valideynlərin övladlarına nəql etməsi sayəsində onlar qan yaddaşımızın əsil mənasını dərk edirlər. Bu gün müstəqilliyimizin bir hədiyyə olmadığını, onun daim qorunub-saxlanılmasının vacibliyini gənclərimiz çox yaxşı bilir. Elə bunun nəticəsi idi ki, gənclərimiz 44 günlük müharibədə əsası gənclərdən təşkil olunan ordumuzun hər bir üzvü şəhidlərimizdən ilham alaraq şəhadətə yüyürdülər- qorxmadan, çəkinmədən. 30 il sonra 2020-ci ildə Vətən Müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazandığımız bu möhtəşəm qələbə 20 Yanvar faciəsinin açdığı yaraya da məlhəm oldu.

Şübhə yoxdur ki, 20 Yanvar xalqımızın müstəqillik sevdasını alovlandıraraq bu yolda daha da inamla addımlamaq üçün bizə rəvac verdi. Bu gün biz gənclər vətənini, millətini, sevən, azadlığına düşkün həmvətənlərimizə, şəhidlərimizə heyranlığımızı gizlədə bilmirik. Mübarizə etdiyiniz üçün, həsrətində olduğumuz azadlıq və yaşatdığınız qürur üçün sizə təşəkkür edirəm. Azərbaycan, xalqımız və gəncliyimiz var olduqca sizi hər zaman xatırlayacaq.

Allah bütün şəhidlərimizə rəhmət eləsin”.

**”Vətəndaş Cəmiyyətində Debat” İctimai Birliyinin sədri Ülviyyə Axundova:** ”20 Yanvar tarixi milli iradə, birlik və vətənpərvərlik simvoludur.

Vətənpərvərlik, milli iradə və bilik simvoluna çevrilmiş 20 Yanvar tarixi xalqımızın öz müstəqilliyi uğrunda apardığı mübarizənin şərəfli bir tarixidir. Bu il 33-cü ildönümü olan Ümumxalq Hüzn Günündə yenə milyonlarla insan paytaxtın ən yüksək nöqtəsində salınan Şəhidlər Xiyabanını ziyarət edərək, qəhrəman Şəhidlərimizin əziz xatirəsini hörmət və ehtiramla yad edir. 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edərkən Ümummilli lideri Heydər Əliyevin bu fikirlərini xatırlayıraq: ”20 Yanvar faciəsində həlak olanlar xalq qəhrəmanlarıdır, onlar milletimizin qəhrəmanlarıdır. Onların həlak olması bizim üçün, xalqımız üçün böyük itkidir. Ancaq eyni zamanda onların şəhid olması xalqımızın qəhrəman-




lıq rəmzidir. Onların tökülən qanı bütün xalqımızın qanıdır. O qanın hər damcısında xalqımızın qüdrəti, qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır”.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə dinc əhaliyə qarşı göstərilən amansız şiddət və kütləvi qırğın xalqımızın iradəsini qıra bilmədi. Bu hadisənin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq, insanların müstəqillik arzularını yox etmək idi. Amma qəhrəman Azərbaycan xalqı həmin günlərdə öz müstəqilliyi uğrunda qəhrəmancasına mübarizə apardı, milli qürurumuzu qorudu və tarix yazdı.

33 il əvvəl Azərbaycan xalqına qarşı törədilmiş bu cinayət, əslində, beynəlxalq hüquqa, humanizmə, insanlığa qarşı həyata keçirilmiş bir terror aktıdır. Bu faciədə 147 Azərbaycan vətəndaşı şəhid olmuş, 638 nəfər yaralanmış və xəsarət almış, 841 nəfər qanunsuz olaraq həbs edilmiş, nəticədə insan hüquqlarına dair bir çox beynəlxalq sənədlərin, o cümlədən Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin tələbləri kobudcasına pozulmuşdur. Öldürülənlər arasında 5 millətin nümayəndələri, 20-dən çox qadın, uşaq var idi. Bu hadisələr həmçinin beynəlxalq humanitar hüququn ciddi və kobud şəkildə pozuntusunu təşkil etməklə, birbaşa 1949-cu il Cenevrə konvensiyasiyalarına ziddir.

Milli birlik və vətənpərvərliyin simvoluna çevrilmiş 20 Yanvar hadisəsi hər zaman xalqımızın yaddaşında qalacaqdır. Bu gün müstəqil Azərbaycan xalqı öz Lideri ətrafında ”Dəmir yumruq” kimi birləşərək həm diplomatik, həm hərbi sahədə qazandığı zəfərlərlə dünyaya səs salır, etibarlı tərəfdaş kimi çıxış edir. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və rəşadətli Azərbaycan Ordusunun şücaəti sayəsində torpaqlarımız işğaldan azad edilmiş, Qarabağa ”Böyük Qayıdış”a başlanmış və xalqımız onun dirçəlişi üçün birlik olmuşdur. Biz Azərbaycan gəncləri də həm ön, həm arxa cəbhədə milli dəyərlərimizə sadiq və yeni çağırışlara hazırlıqlı şəkildə fəaliyyətimizi davam etdirərək ölkəmizi ən uğurlu şəkildə təmsil etmək və adını daima yüksəklərdə tutmaq üçün əlimizdən gələni edirik, edəcəyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin, biz Onlarla qürur duyuruq!”.

***Ayşən Vəli***

# "YENİ ÇAĞIRIŞLAR, YENİ PROBLEMLƏR VƏ YENİ İMKANLAR VAR"

*İlham Əliyev: "30 il ərzində davam edən siyasi münasibətlər artıq bizim yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğumuzu nümayiş etdirir"*






Azərbaycan və Çin arasında tarixən ticarət və mədəni əlaqələr mövcud olmuşdur. Çindən başlayan Böyük İpək yolu Azərbaycandan keçməklə Qafqaza və oradan Qara dəniz vasitəsilə Avropaya qədər uzanmışdı. Bu tarixi bağlılıq dəyişən dünyanın siyasi proseslərində əhəmiyyətini itirməmiş, ölkəmiz SSRİ-nin tərkibində olduğu vaxtlar belə Çinlə münasibətlər qorunub saxlanmışdır. Tarixdən bəllidir ki, XX əsrin 50-ci illərində neft, geologiya və s. sahələr üçün mütəxəssislərin hazırlanması daxil olmaqla müxtəlif sferalarda özünü göstərmişdir. Dünyanın ən böyük dövlətlərindən biri olan Çin dünyanın bütün ölkələri ilə qarşılıqlı surətdə faydalı əməkdaşlıq yaratmaq prinsiplərini rəhbər tutan Azərbaycanla bütün istiqamətlərdə sıx əlaqələrə malikdir.Xatırladaq ki, Azərbaycan müstəqilliyini elan etdikdən sonra onun müstəqilliyini tanıyan ilk ölkələrdən biri də Çin Xalq Respublikası olub. ÇXR 1991-ci il dekabrın 27-də Azərbaycan Respublikasının müstəqilliyini tanıyıb. İki ölkə arasında diplomatik əlaqələr 1992-ci il aprelin 2-də qurulub. Milli Məclisin qərarı ilə 1993-cü il 3 sentyabrda Azərbaycan Respublikasının Çin Xalq Respublikasında səfirliyinin açılmasını qərarlaşdırıb. İki ölkə arasında rəsmi şəxslərinin qarşılıqlı səfərləri diplomatik əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

1994-cü il 7-10 mart tarixində Azərbaycan Rspublikasının Prezidenti Heydər Əliyev Çin Xalq Respublikasında rəsmi səfərdə olmuş, Prezident Çin Xalq Respublikasının Sədri Tszyan Tszemin, Baş naziri Li Pen ilə rəsmi görüşlər keçirmişdir. Səfər zamanı iki dövlət arasında səkkiz müqavilə imzalanmışdır. Azərbaycanın istiqlaliyyətinin elan olunması və Pekinlə Bakı arasında diplomatik münasibətlər yaradılması ikitərəfli əlaqələri genişləndirmək üçün əlverişli imkan açmışdır. Bu əlaqələr sabit və sağlam əsasda inkişaf edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də Davosda Çinin CGTN (China Global Television Network) televiziya kanalına müsahibə verərkən bildirdiyi kimi, "Bizim çox yaxşı münasibətlərimiz var. Çin və Azərbaycan yaxşı dostlardır. Mənim Sədr Si Cinpinlə dəfələrlə görüşmək imkanım olub".

**Qurulan əlaqələr qarşılıqlı etimada əsaslanır**

Dövlətimizin başçısı əməkdaşlığımız üçün tərəfimizdən çox möhkəm platforma qurulduğunu bildirərək 30 il ərzində davam edən siyasi münasibətlərin artıq bizim yaxşı tərəfdaş və bir-birinə etibar edən dostlar olduğumuzu nümayiş etdirdiyini diqqətə çatdırıb: "Bizim beynəlxalq təsisatlar çərçivəsində çox yaxşı əməkdaşlığımız var. Biz həmişə bir-birimizin ərazi bütövlüyünü və suverenliyini dəstəkləyirik. Biz çox möhkəm siyasi platforma qurmuşuq. İndi isə biz bunun üzərində iqtisadi əməkdaşlığımızı qururuq. Bugünkü vəziyyətdə bu çox mühümdür, çünki yeni çağırışlar, yeni problemlər və yeni imkanlar var. Biz daha çox Çin şirkətini Azərbaycanda görməyə ümid edirik. Onlardan bəziləri müxtəlif sahələrdə artıq kifayət qədər fəaldır".

Əlbəttə ki, Mərkəzi və Şərqi Asiyada böyük bir dövlət olan Çin tarixin bütün mərhələlərində dünyada öz yeri, mövqeyi və təsiri olan ölkə kimi diqqəti cəlb etmişdir. Onunla qədim sivilizasiyalardan biri hesab edilən, Çindən məsafəcə uzaqda yerləşən Azərbaycan arasında qurulan əlaqələr qarşılıqlı etimada əsaslanır.

Qloballaşan dünyada Azərbaycan və Çin arasında ildən-ilə iqtisadi əlaqələrimiz genişlənir. İkitərəfli əlaqələrimizdə iqtisadi münasibətlərin inkişaf səviyyəsinin yüksəlməsi bu gün hər iki dövlətin geniş potensialının tam şəkildə istifadəsinə real şərait yaradır. "Bir kəmər, bir yol" təşəbbüsü indi çox böyük coğrafiyanı əhatə edən, vaxtında irəli sürülmüş çox müdrik bir təşəbbüs idi" - deyən Prezident bildirib ki, Azərbaycan bu təşəbbüsə ilk günlərdən fəal şəkildə qoşuldu və biz mövcud olmayan infrastruktura investisiya yatırmağa başladıq: "Beləliklə, bu illər ərzində, daha dəqiq desək son 10 il ərzində biz Xəzər dənizində ən böyük ticarət limanlarından birini, bəlkə də ən böyüyünü inşa etdik. Onun yükaşırma qabiliyyəti 15 milyon tondur və biz onu 25 milyon tona qədər artıracağıq. Biz Xəzər dənizi ilə yükləri daşımaq üçün gəmiqayırma zavodunu inşa etdik. Biz əsasən dəmir yolu infrastrukturuna investisiya yatırdıq və bunu təkcə Azərbaycanda yox, regionda da etdik. İndi isə biz bu dəmir yolunu Bakıdan qərb istiqamətində genişləndirmək üçün əlavə sərmayə yatırırıq. Biz bütün digər layihələri - avtomagistrallar, hava limanları kimi layihələri də həyata keçirmişik. Beləliklə, açıq dənizə çıxışı olmayan bir ölkə olan Azərbaycan beynəlxalq, logistik və nəqliyyat mərkəzinə çevrildi".

**"BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ BİZİM ÜÇÜN İNDİ ƏSAS PRİORİTETLƏRDƏN BİRİNƏ ÇEVRİLİB"**

Azərbaycan iqtisadiyyatının lokomotivi olan neft sektoruna Çin şirkətləri də böyük maraq göstərir. 2018-ci ildə SOCAR-la Çin Milli Neft Şirkətinin (CNPC) törəməsi olan "BGP Inc." şirkəti arasında birgə müəssisənin yaradılmasına dair Təsis Müqaviləsi imzalanıb. BGP-nin əsas fəaliyyət sahələrinə quruda, keçid zonasında və dənizdə kəşfiyyat işlərinin aparılması, o cümlədən mürəkkəb əməliyyatlar aparmaqla seysmik məlumatların əldə edilməsi, emalı və interpretasiyası, seysmik avadanlıqların istehsalı və əlaqədar informasiya-kommunikasiya texnologiyaları (İKT) xidmətlərinin göstərilməsi daxildir. SOCAR-ın Bakının Qaradağ rayonu ərazisində inşa etdiyi Neft-qaz emalı və Neft-kimya Kompleksi (OGPC) layihəsində CNPC-nin iştirakı və payçı kimi qoşulması da gözlənilir. SOCAR və CNPC arasında 2016-cı ildə bu sahədə Anlaşma Memorandumu imzalanıb.

2019-cu ilin 24-27 aprel tarixlərində Azərbaycan prezidenti İlham Əliyevin başçılıq etdiyi nümayəndə heyəti 2-ci "Kəmər və Yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirak etmək məqsədilə Çinə səfər edib. Bu beynəlxalq forum çərçivəsində Azərbaycan və Çin şirkətləri arasında ümumi dəyəri 821 milyon ABŞ dolları olan müxtəlif istiqamətlər üzrə 10 sənəd imzalanıb. Bunlar Sumqayıt Kimya Sənaye Parkı ərazisində şin istehsalı zavodunun qurulmasına, Kürdəmir rayonunda 300 hektaradək sahədə müasir istixana kompleksinin tikintisinə, Quba, Xaçmaz və Göyçayda aqro-logistik sənaye parklarının yaradılmasına, "Azerbaijan Digital HUB" proqramı çərçivəsində Asiya-Avropa telekommunikasiya dəhlizinin yaradılmasına, Transxəzər Nəqliyyat Dəhlizi vasitəsilə Bakıya və Azərbaycan ərazisindən tranzit keçməklə digər ölkələrə 2500-dək konteynerin daşınmasına, Azərbaycan istehsalı olan şərab və digər spirtli içkilərin Çinə ixracına, Çinin Çendu şəhərində Azərbaycan Ticarət Evinin yaradılmasına dair sənədlərdir.

Cənab Prezident müsahibəsində Çinlə əməkdaşlıq portfelimizə yaşıl enerji sahəsində əməkdaşlığı əlavə edərək bildirib ki, Azərbaycanda böyük potensial var və Çində böyük texnoloji nailiyyətlər mövcuddur. Beləliklə, biz bu səyləri birləşdirməliyik: "Bizim prioritetlərə gəldikdə, bərpaolunan enerji mənbələri bizim üçün indi əsas prioritetlərdən birinə çevrilib. Son bir neçə ay ərzində biz 22 qiqavat bərpaolunan enerji mənbələrini yaratmaq üçün sərmayə təmin edəcək sənədlər imzalamışıq. Söhbət həm dənizdən, həm də qurudan gedir. Bu isə regional iqtisadi konfiqurasiyanı tamamilə dəyişəcək. Çünki Avropada baş verən yaşıl enerjiyə keçiddən xəbərimiz var. Eyni zamanda, Azərbaycan neft və təbii qazın təchizatçısıdır. İndi biz yaşıl enerjini, o cümlədən dənizdə külək elektrik stansiyalarından hasil olunacaq yaşıl hidrogeni təchiz etməyi planlaşdırırıq. Dediyim kimi, biz ilkin sənədləri imzalamışıq. Əlbəttə ki, müqavilələr gələcəkdə imzalanacaq. Lakin bunun təkcə bizim ölkə üçün yox, həm də bütün region üçün çox böyük potensialı var".

Mövcud münasibətlər ölkələrimiz arasında siyasi, iqtisadi, humanitar sahələrdə, eləcə də beynəlxalq təşkilatlarda uğurlu əməkdaşlığımıza söykənir.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycanın istiqlal yolunun ilk zirvəsi

## *ULU ÖNDƏR HEYDƏR ƏLİYEV VƏ 20 YANVAR HƏQİQƏTLƏRİ*

**Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən 2023-cü ili - "Heydər Əliyev İli"etməsi və bu tarixi ildə 20 yanvar hadisələrinin 33-cü ildönümünü və igid övladlarının fədakarlığını sonsuz məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük fəxarət və qururla yad edir.**



Bəli, bu gün Bakıda Qanlı Yanvar faciəsindən 33 il keçməsinə baxmayaraq, onun ağrı-acıları bu gün də qəlbimizi göynədir, qırmızı qərənfillərə bürünmüş şəhid cənazələrini çiyinlərində aparan insan seli, izdiham hər zaman gözümüzün önündədir. Bəli, xalqımızın qan yaddaşına yazılan 20 Yanvar faciəsi zaman etibarilə bizdən uzaqlaşsa da, sanki dünən baş verib. O gecə Bakı qan içində boğuldu. Azərbaycan 73 il əvvəl olduğu kimi, yenə faciəyə düçar edildi - Xalqımızın haqq səsini boğmaq istəyən o zamankı Kreml rəhbərləri 1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə - o qanlı şənbə gecəsi imperiya silahlarından əliyalın, silahsız millətimizin üzərinə güllə yağmuru yağdıraraq Bakıda Qanlı Yanvar qırğınını törətdi. Əksəriyyəti ermənilərdən ibarət olan Sovet ordusunun törətdiyi qətl və cinayətlər yanvarın 20-dən sonra da davam etdi. Müdrik bir məsəl var: "Tarixini bilməyənlər onu yenidən yaşamağa məhkumdurlar".Həmin müdhiş yanvar gecəsindən bizi tam 33 il ayırır. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30 radələrində keçmiş Sovet İttifaqının müxtəlif təyinatlı qoşun hissələri fövqəladə vəziyyət elan etmədən qəflətən Bakı şəhərinə yeridilərək, küçə və meydanlarda toplaşan dinc əhaliyə amansızcasına divan tutmağa başladı. Nəticədə yüzlərlə dinc və əliyalın insan qətlə yetirildi, yaralandı və itkin düşdü. Fövqəladə vəziyyətin tətbiqi haqqında məlumat əhaliyə elan olunanadək hərbçilər gecə ərzində Bakıda 82 nəfəri amansızcasına qətlə yetirdi, 20 nəfəri ölümcül yaraladı. Fövqəladə vəziyyət elan edildikdən sonra isə - yanvarın 20-də və sonrakı günlər şəhərdə daha 21 nəfər qətlə yetirildi. Fövqəladə vəziyyət tətbiq olunmayan rayonlarda belə həmin günlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda 8 nəfər dinc sakin qətlə yetirilmişdir.





Keçmiş İttifaqın rəhbəri, bu qırğınların törədicisi M.Qorbaçovun ən yaxın məsləhətçilərindən biri olan akademik A.Aqanbekyanın hələ 1987-ci ilin noyabrın ortalarında Fransanın erməni institutu assosiasiyasının üzvləri ilə görüşərkən guya Qarabağın qədim erməni torpağı olduğunu iddia etməsi qanlı faciələrə başlamaq üçün bir siqnal idi. Qorbaçova yaxın olan Brutens, Şahnazarov, Sitaryan, Xaçaturov və digər qatı şovinist erməni emissarlarının Qarabağı Azərbaycandan qoparmaq üçün sonadək mübarizə aparacaqları xarici dövlətlərə və oradakı kəşfiyyat orqanlarına yaxşı məlum idi. Qorbaçov özü də artıq ermənilərin dirijor çubuğu ilə durub-oturmaqla ölkəni "idarə edirdi." Xatırladaq ki, o vaxt daşnak Zori Balayanın xalqımıza qarşı böhtan və iftiralarla dolu "Ocaq" kitabı Qorbaçovun stolüstü kitabına çevrilmişdi. Məhz ermənipərəst Qorbaçovun xeyir-duasından sonra vəhşi daşnaklar Azərbaycana doğru yürüşə başladılar.20 Yanvardan sonra baş verən faciələr sırasına dünyanın ən dəhşətli hadisələrindən biri Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Qarabağın bəzi ərazilərində baş verən qanlı səhifələr də əlavə olundu. Vəhşi imperiyanın təpədən-dırnağadək silahlandırdığı erməni faşizmi ilə qeyri-bərabər döyüşlərdə 30 minə yaxın qəhrəman, mərd oğullarımızı itirdik. Ərazilərimizin 20 faizi işğal olundu, 1 milyondan artıq yurddaşımız öz doğma atababa torpağından didərgin düşdü.

### 1990-CI İL YANVARIN 21-DƏ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN BU HADİSƏDƏ ƏLİ OLANLARIN ƏLEYHİNƏ KƏSKİN BƏYANATI MİLLİ AZADLIQ HƏRƏKATININ BAŞLANMASINA CİDDİ TƏKAN OLDU

20 Yanvarda qanla boğulmuş və qismən əzilmiş xalq hərəkatının yenidən dirçəlişi və milli azadlıq mübarizəsi mərhələsinə keçməsi o zaman Mixail Qorbaçov və ermənipərəst ətrafının səyi ilə SSRİ rəhbərliyindən istefaya göndərilən və xüsusi təzyiq altında Moskvada yaşayan Heydər Əliyevin bu prosesə fəal qoşulmasından sonra xüsusi vüsət aldı. Onun 1990-cı il yanvarın 21-də Moskvada Azərbaycanın Daimi Nümayəndəliyinə gələrək, bu hadisədə əli olanların əleyhinə kəskin bəyanat səsləndirməsi, kütləvi qırğınının səbəbkarı kimi SSRİ və Azərbaycanın yerli rəhbərlərini qətiyyətlə ittiham etməsi xalq hərəkatına yeni nəfəs və istiqamət verdi. Bu aksiyanın ardınca, Heydər Əliyevin heç bir hədə-qorxu və təxribatlardan qorxmayaraq, 1990-cı il iyulun 20-də Vətənə qayıtması Azərbaycanda müstəqillik uğrunda xalq hərəkatının, başqa sözlə, sistemli milli azadlıq hərəkatının başlanmasına ciddi təkan oldu.Əlbəttə, o zaman Azərbaycana rəhbərlik edənlər - Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov, ikinci katib V.Polyaniçko və digərləri, dövrün siyasi müxalifəti sayılan və proseslərdə birbaşa iştirak edən AXC İdarə Heyəti 20 Yanvar faciəsində bu və ya digər formada siyasi və mənəvi məsuliyyət daşıyırdılar, ancaq bu qanlı əməliyyat birbaşa Kreml, Qorbaçov və onun xaricdən qısqırdılan erməni əlaltıları tərəfindən planlaşdırılmış, imperiya mərkəzinin göndərdiyi emissarlar tərəfindən zəmin hazırlanmış və SSRİ müdafiə və daxili işlər nazirləri Yazov və Bakatinin komandanlıqları altında həyata keçirilmişdi. İstər ittifaq, istər respublika rəhbərliyinin, istərsə də AXC İdarə Heyətinin 20 Yanvar faciəsindəki əsas məsuliyyəti və günahı isə bu qətliamın qarşısını almamaları, buna ciddi səy göstərməmələri, siyasi müdriklik nümayiş etdirə bilməmələri, hadisədən əvvəl və hadisə zamanı xalqı meydanlarda başsız qoyub qaçmaları, həlledici məqamda xalqın içində olmamaları, silahsız və günahsız insanları dişinə qədər silahlanmış və aqressiv təlimat almış ordu hissələri ilə üz-üzə qoymalarında idi. O zaman Azərbaycana rəhbərlik edən Əbdülrəhman Vəzirovun qətliamdan bir neçə saat əvvəl xüsusi təyyarə ilə Moskvaya qaçmasını, Xalq Cəbhəsi rəhbərlərindən isə o gecə kimsənin küçədə, xalqın yanında olmamasını xalqımız haqlı olaraq dərhal qınadı. Xalqı azadlıq, müstəqillik, böyük ideallar, milli-mənəvi dəyərlər uğrunda mübarizəyə səsləyən "liderlər" həlledici məqamda onun yanında olmadılar, yalnız səhər açıldıqdan və ara sakitləşdikdən sonra ortaya çıxaraq, imperiyanı "lənətləməyə" başladılar. Azərbaycan rəhbərliyi və Xalq Cəbhəsi həmin günlər və sonrakı dövrdə bu hadisəni yaddan çıxarıb hakimiyyət uğrunda mübarizəyə girişdilər. 20 Yanvardan sonra şəhidlərin meyitləri üzərindən addımlayaraq hakimiyyətə gələn və bu faciəni unutdurmağa çalışan Ayaz Mütəllibov komandası da, ondan sonra iqtidara gələn AXC komissarları da bu hadisəyə hüquqi-siyasi qiymət verməyə həvəs göstərmədilər. Çünki bunda maraqlı deyildilər. Birincilər bu cinayətdə bilavasitə iştirak etdikləri, ikincilər isə bu faciəyə görə mənəvi-siyasi məsuliyyət daşıdıqları üçün bunu etmədilər.

Məhz ulu öndər Heydər Əliyevin 20 Yanvardan sonra Moskvadakı məlum çıxışı, azərbaycanlıların qanını tökmüş imperiya yetkililərini ciddi ifşa etməsi müstəsna rol oynadı. Həmin çıxış o vaxtadək gözləmə mövqeyində olan Azərbaycan ziyalılarını da hərəkətə gətirdi və müstəqillik çağırışları Azərbaycanda getdikcə daha geniş kütlə arasında səslənməyə başladı. Beləliklə, 20 yanvardan sonra Xalq hərəkatı Milli-azadlıq, İstiqlal hərəkatına çevrildi.

### 20 YANVAR HADİSƏLƏRİNƏ DÜZGÜN VƏ OBYEKTİV HÜQUQİ-SİYASİ QİYMƏT VERİLMƏSİ DƏ MƏHZ ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN XİDMƏTİDİR

20 Yanvar hadisələrinə düzgün və obyektiv hüquqi-siyasi qiymət verilməsi də məhz ulu öndər Heydər Əliyevin xidmətidir. Hələ hadisənin ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ümummilli lider Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında qəzəblə qınadı, ifşaedici və cəsarətli bəyanatla çıxış etdi. Bunun ardınca 1990-cı ildə o, öz doğma Vətəninə - Azərbaycana qayıtdı.

Ayaz Mütəllibov hökuməti ona Bakıda yaşamaq imkanı vermədiyi üçün 1990-cı il iyulun 22-də, yəni Moskvadan qayıtdıqdan iki gün sonra paytaxtı tərk edərək doğulduğu Naxçıvana üz tutmağa məcbur oldu. Az sonra - 1990-cı ilin avqust ayında qədirbilən Naxçıvan əhalisinin kütləvi dəstəyi ilə Heydər Əliyev həm Azərbaycan SSR Ali Sovetinə, həm də Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinə deputat seçildi. Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına deputatlar sədrliyi Heydər Əliyevə həvalə etdilər. İclasda onun təşəbbüsü ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "sovet" və "sosialist" sözləri çıxarıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Ali Məclisin birinci sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul olundu və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırıldı ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında analoji qərarlar qəbul etsin. Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilən bu tarixi qərarlar və müstəqillik istiqamətində həyata keçirilən sonrakı proseslər, o cümlədən 1991-ci il sentyabrın 3-də onun Naxçıvan Ali Məclisinin sədri seçilməsi belə deməyə əsas verir ki, həmin dövrdə Heydər Əliyevin Naxçıvana gəlişi ilə milli azadlıq hərəkatının mərkəzi Bakıdan Naxçıvana keçdi və bu hərəkatın lideri məhz Heydər Əliyev oldu. Heydər Əliyevin deputat kimi ardıcıl nümayiş etdirdiyi əsl mübariz vətəndaşlıq mövqeyi, Azərbaycanın müstəqilliyi uğrunda ölkə parlamentinin tribunasından etdiyi qətiyyətli çıxışlar, ümummilli problemlərin həllinə xidmət edən səmərəli təklifləri onu tezliklə milli azadlıq hərəkatının gerçək liderinə çevirdi.

Daha sonra ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiyməti verdi. Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərarı qəbul etdi. Ümummilli lider Heydər Əliyev Azərbaycan SSR Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasındakı çıxışı zamanı bəyan etdi ki, İttifaq dövləti 1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı hərbi təcavüz etmişdir. Əhalinin bütün təbəqələri, xüsusilə də mütərəqqi dünyagörüşlü ziyalılar, hətta ciddi təqibə məruz qalmış AXC fəalları Heydər Əliyevin ətrafında cəm oldular. Oktyabrın 18-də müstəqillik haqqında Konstitusiya Aktının qəbul edilməsinə və müstəqillik məsələsinə dair yeni referendumun təyin edilməsinə nail oldu. Elə bunun nəticəsi kimi, Azərbaycan Kommunist Partiyasının ovaxtkı rəhbərliyi 1991-ci il martın 17-də respublikada SSRİ-nin saxlanması ilə bağlı saxta referendum təşkil edərək, guya əhalinin 75 faizinin müstəqilliyin əleyhinə səs verdiyini elan etmişdi. O zaman yalnız Heydər Əliyev başda olmaqla Naxçıvan Muxtar Respublikasının Ali Məclisi bu saxta və antimilli referendumun Naxçıvan Muxtar Respublikasında keçirilməsindən imtina etmiş və qarşısını almışdı. Heydər Əliyev SSRİ-nin saxlanması ilə bağlı yeni ittifaq müqaviləsinə də hamıdan qabaq - 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında ciddi etiraz etmiş və Mütəllibov hakimiyyətinin Azərbaycanı yeni ittifaqın tərkibinə daxil etməsinin, bunun üçün respublikada xüsusi referendum keçirilməsinin qəti əleyhinə olduğunu birmənalı şəkildə bəyan etmişdi.

## AXC-MÜSAVAT CÜTLÜYÜNÜN BİRİLLİK HAKİMİYYƏTİ DÖVRÜNDƏ AZƏRBAYCANIN MÜSTƏQİLLİYİNƏ, DÖVLƏTÇİLİYİNƏ BÖYÜK ZƏRBƏ VURULDU, ÖLKƏ VƏTƏNDAŞ MÜHARİBƏSİ ASTANASINA GƏTİRİLDİ

1992-ci ilin mayında AXC-Müsavat dairələri o zaman üçün tam nüfuzdan düşmüş Mütəllibov hökumətini devirərək siyasi hakimiyyəti ələ keçirdilər. Əslində, bu həm milli azadlıq hərəkatına, həm respublikada yenicə yaranmaqda olan demokratik prosesə, həm də şəxsən Heydər Əliyev kimi təcrübəli bir liderin demokratiya və milli azadlıq mübarizəsi yolunda göstərdiyi xidmətlərinə qarşı ədalətsiz bir gediş idi. 1992-ci il mayın 18-də Ali Sovetə sədr seçkisində AXC rəhbərliyi deputatların böyük hissəsinin və ölkə ictimaiyyətinin tələbinə baxmayaraq, Heydər Əliyevin namizədliyinin irəli sürülməsinə, hətta parlamentdən onunla əlaqə yaradılmasına mane oldular. Onlar öz namizədlərinin sədr "seçilməsinin" hansısa doqquz xarici dövlətlə razılaşdırılması barədə cəfəng antidemokratik fikirlər səsləndirməkdən belə çəkinmədilər. Hakimiyyətə tam yiyələndikdən sonra Heydər Əliyevi özlərinə ciddi rəqib sayan bu adamlar bütün vacib işlərini bir kənara qoyub, onunla qeyri-qanuni və antikonstitusion mübarizəyə girişdilər, dəfələrlə Naxçıvanda dövlət çevrilişinə, Ali Məclis sədrinin fiziki varlığına son qoymağa cəhd göstərdilər. Bu cür qeyri-demokratik vasitələrlə fəaliyyət göstərən AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövründə Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə böyük zərbə vuruldu, ölkə vətəndaş müharibəsi astanasına gətirildi.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN "SƏS" QƏZETİ VASİTƏSİLƏ ÖLKƏ ZİYALILARINA CAVABI AZƏRBAYCANIN MÖVCUD FƏLAKƏTLİ VƏZİYYƏTİNİN HƏRTƏRƏFLİ TƏHLİLİ VƏ ONDAN ÇIXIŞ YOLLARINI GÖSTƏRƏN DƏQİQ MİLLİ FƏALİYYƏT PROQRAMI İDİ

Gündən-günə kəskinləşən vətəndaş qarşıdurmasını aydın görən bir qrup vətənpərvər Azərbaycan ziyalısı 1992-ci il oktyabrın 16-da Heydər Əliyevə müraciət etdi. Müraciət "SƏS" qəzetində dərc olundu. Müraciətdə ziyalılar Azərbaycanı düçar olduğu fəlakətli böhrandan çıxarmaq məqsədilə ölkədə bütün vətəndaşları, sağlam düşüncəli qüvvələri öz ətrafında birləşdirə bilən yeni bir siyasi partiyanın yaradılması və ona rəhbərlik etmək məsələsinə münasibət bildirməsini Heydər Əliyevdən xahiş edirdilər. Əlbəttə ki, Azərbaycanı canı qədər sevən Heydər Əliyev, çoxsaylı ölkə ziyalılarının, geniş xalq kütlələrinin tələblərini bir lider kimi cavabsız qoya bilməzdi. Belə də oldu, cəmi bir həftə sonra - oktyabrın 24-də O, "SƏS" qəzeti vasitəsilə ölkə ziyalılarına cavab verdi. Bu, əslində, adi bir cavab deyildi, Azərbaycanın mövcud fəlakətli vəziyyətinin hərtərəfli təhlili və ondan çıxış yollarını göstərən dəqiq milli fəaliyyət proqramı idi. Və Bakıda qurultay keçirməsinə imkan verilmədiyi üçün ziyalılar və partiya qurucuları soyuq və şaxtalı gündə, Naxçıvanda noyabrın 21-də Yeni Azərbaycan Partiyası (YAP) adlanan siyasi təşkilat yaratdılar. Cəmi 7 ay sonra, 1993-cü ilin iyununda YAP-ın sədri, Azərbaycan xalqının görkəmli lideri Heydər Əliyev xalqın tələbi ilə siyasi hakimiyyətə qayıtdı.

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 1993-CÜ İL 15 İYUN QAYIDIŞI AZƏRBAYCANI SONRAKI LABÜD İFLASDAN XİLAS ETDİYİ TARİX

Onun qayıdışı ilə ölkənin bütün sağlam qüvvələri, ictimai-siyasi və mənəvi potensialı hakimiyyətin ətrafında səfərbər olaraq Azərbaycanı sonrakı labüd iflasdan xilas etdilər. Ümummilli lider Heydər Əliyev xalqın arzusu və tələbi ilə Azərbaycana ikinci dəfə rəhbərlik etməyə qayıtdıqdan cəmi bir neçə ay sonra, 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzaladı. Fərmanda Milli Məclisə faciəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bunun ardınca isə 1994-cü il yanvarın 12-də dövlət komissiyasının geniş iclasında çıxış edən Ulu Öndər Azərbaycan Respublikası Ali Soveti Milli Şurasının 1992-ci il 19 yanvar tarixli qərarını xatırladaraq, bu qərarda 20 Yanvar hadisələrinin əsl səbəblərinin açıqlanmadığını, həqiqi günahkarların aşkar edilmədiyini, iki il ərzində həmin qərarın özünü doğrultmadığını diqqətə çatdırdı. 1994-cü il yanvar ayının 5-də ulu öndər Heydər Əliyevin müvafiq Fərmanı ilə Milli Məclisin müzakirəsinə təqdim olunan 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi haqqında sənəd həmin ilin mart ayında Prezidentin özü tərəfindən təsdiqlənərək, Azərbaycan xalqının öz haqqını tələb edə bildiyini, ona qarşı cinayət törətmiş caniləri mühakimə etməyi bacardığını bir daha sübut etmiş oldu. 1994-cü il mart ayının 29-da ümummilli lider Heydər Əliyevin gərgin əməyinin nəticəsi olaraq "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da Azərbaycan xalqının məruz qaldığı dəhşətli faciəyə - 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilmiş oldu.

## BAŞ VERƏN HADİSƏLƏRDƏN 33 İL KEÇSƏ DƏ, BU GÜN FƏXARƏTLƏ DEYƏ BİLƏRİK Kİ, AZƏRBAYCAN XALQI MÜSTƏQİLLİYİMİZ VƏ ƏRAZİ BÜTÖVLÜYÜMÜZ UĞRUNDA CANINDAN KEÇƏN BÜTÜN QƏHRƏMAN ÖVLADLARININ QANINI YERDƏ QOYMADI

3 ildir ki, Azərbaycan dünyaya bir daha göstərdi ki, bu xalq, bu dövlət bu ordu güclüdür, hər şeyə qadirdir. Son 3 il öncə - 2020-ci ildə ümummilli lider Heydər Əliyevin layiqli və uğurlu davamçısı Ali Baş Komandan, Qalib Sərkərdə, Prezident İlham Əliyevin "Dəmir yumruq" əməliyyatı ilə 44 gün ərzində 30 il ərzində Azərbaycan dövləti on illərdir ki, beynəlxalq qurumların- BMT, ATƏT və s. kimi təşkilatların "sülhyaratma dəhlizlərində" düyünə salınmış Dağlıq Qarabağ münaqişəsi və işğal problemini həll edərək erməni işğalı altında tapdanan tarixi torpaqlarımızın və yüzlərlə yaşayış məskənlərimizin geri qaytarılmasına nail oldu. İkinci Qarabağ müharibəsi Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi altında, eynən 20 Yanvarda olduğu kimi, bir daha bütün dünyaya Azərbaycan xalqının dəmir iradəsi və qələbə əzmini, lazımi anda öz dövləti ətrafında birləşmək bacarığını və Vətən üçün canını qurban vermək iradəsini nümayiş etdirdi. Bir sözlə, müharibəsində ordumuz torpaqlarımızı işğaldan azad etdi, şəhidlərimizin qanı yerdə qalmadı, Azərbaycan böyük tarixi qələbə qazandı. Ölkə Prezidentinin də dediyi kimi: "Azərbaycan xalqı öz böyüklüyünü göstərdi, yüksək mənəvi ruhunu göstərdi. Bu Qələbənin səbəbkarı da Azərbaycan xalqıdır. Biz birlik, iradə, əzmkarlıq, milli ruh göstərərək tarixi missiyamızı yerinə yetirdik".Tarixi qələbəmiz, müstəqil və qüdrətli Azərbaycan şəhidlərimizin ruhuna ehtiramın ən yüksək ifadəsidir. 20 Yanvar isə qəhrəmanlıq tariximizin başlanğıcıdır. Nə qədər ki, Azərbaycan var, şəhidlərimizin xatirəsi də əbədi yaşayacaqdır!".

## BU GÜN İSƏ "HEYDƏR ƏLİYEV İLİ"NDƏ BİZ ÇOXƏSRLİK AZƏRBAYCAN TARİXİNİN ŞANLI SƏHİFƏLƏRİNİ QÜRURLA YAŞAMAQDAYIQ

Bəli, artıq 3 ildir ki, xalqımız 20 Yanvar hadisələrinin 33-cü ildönümünü və igid övladlarının fədakarlığını sonsuz məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük fəxarət və qurula yad edir. Məhz Azərbaycan xalqının ən əsas sevinc - Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən 2023-cü ili - "Heydər Əliyev İli" elan etməsi oldu. Belə ki, mayın 10-da xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Böyük şəxsiyyətlərin yubileylərinin dövlət səviyyəsində qeyd olunması, bu münasibətlə müxtəlif tədbirlərin təşkili dünyanın müxtəlif ölkələri üçün xarakterikdir. Bütöv bir ilin ayrı-ayrı şəxsiyyətlərin şərəfinə adlandırılması isə Azərbaycanın yaratdığı parlaq örnəkdir və bu, xalqımızın ictimai fikir, milli dövlətçilik tarixində mühüm xidmətləri olmuş böyük şəxsiyyətlərimizə ölkə rəhbərimizin yüksək ehtiramından irəli gəlir. Sərəncamda deyilir ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

Bəli, bu gün xalqımız 20 Yanvar hadisələrinin 33-cü ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını sonsuz məhəbbətlə xatırlayır, onların əziz xatirəsini böyük ehtiramla yad edir. Bakının ən möhtəşəm məkanında Vətən uğrunda canlarını qurban vermiş mərd, igid oğul və qızlarımızın uyuduğu Şəhidlər xiyabanı xalqımız üçün müqəddəs bir and yerinə, milli iradəmizin şərəfli salnamə səhifəsinə çevrilib. Şəhidlər xiyabanı azadlığımızın, müstəqilliyimizin, milli kimliyimizin təsdiqinin simvolu kimi bundan sonrakı nəsillərə də hər zaman qürur mənbəyi olacaqdır. Çünki şəhid qanı müqəddəsdir. Ona ən dəqiq qiyməti də ulu öndər Heydər Əliyev verib: "O qanın hər damcısında bizim xalqımızın qüdrəti var, xalqımızın qəhrəmanlığı var, xalqımızın milli azadlıq, müstəqillik arzuları vardır. O gecə tökülən qanlar müqəddəs qanlardır. Onlar bizim xalqımızın əsrlərboyu milli azadlıq, müstəqillik uğrunda tökdüyü qanlara qovuşmuş qanlardır, o gecə tökülən qanlar Azərbaycanın müstəqilliyini nümayiş etdirən milli bayrağımızın üstündəki qandır".Ancaq bu gün ölkəmizdə 33 il əvvəl, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet rejiminin hərbi, siyasi və mənəvi ctnayət törədənlər bilməlidir ki, təcavüzü məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu göstərdi. Haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları o qanlı gündə xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Tariximizə həm də milli qürur günü kimi düşən 1990-cı ilin 20 Yanvarında Azərbaycan xalqı azad, suveren və müstəqil yaşamağa layiq olduğunu bütün dünyaya çatdırdı. Ona görə də hesab edirik ki, keçmiş sovet rəhbərliyi və hərbi xuntanın bu cinayətlə bağlı olan bütün heyətinin beynəlxalq cinayət məsuliyyətinə cəlb olunması üçün kifayət qədər faktiki və hüquqi əsaslar mövcuddur. Və bu gün "Heydər Əliyev İli"ndə biz çoxəsrlik Azərbaycan tarixinin şanlı səhifələrini qürurla yaşamaqdayıq. Ümummilli lider Heydər Əliyevin dediyi kimi, 20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifədir, ancaq o, təkcə faciə deyil. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin, azadlıq istəyinin oyanış günü idi. Bu, uzun illər sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli bir tarixdir.

**RƏFİQƏ KAMALQIZI**




# “Forum dövlət-özəl sektor əməkdaşlığı üzrə beynəlxalq təşkilatdır”

“Yanvarın 16-dan 20-dək İsveçrənin Davos şəhərində ”Parçalanmış dünyada əməkdaşlıq” devizi altında Dünya İqtisadi Forumu (WEF - World Economic Forum) keçirilir. Təşkilatçılara görə, bu il Davosa rekord sayda iştirakçı gəlib”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ülviyyə Həmzəyeva deyib.

Onun sözlərinə görə, bu forum ötən əsrin 70-ci illərindən dünya liderlərini, iri şirkətlərin top menecerlərini, siyasi və ictimai xadimləri qəbul edir: ”2021-ci ildə WEF-in iclası koronavirus pandemiyası səbəbindən onlayn keçirilib. 2022-ci ildə Forum COVID ilə əlaqədar olaraq yanvar ayında deyil, may ayında keçirilmişdir. Davosda keçirilən Dünya İqtisadi Forumu dövlət-özəl sektor əməkdaşlığı üzrə beynəlxalq təşkilatdır. Forum 1971-ci ildən fəaliyyətə başlayıb. Forumun təsisçisi və daimi rəhbəri Cenevrə Universitetinin professoru Klaus Şvabdır. Dünya İqtisadi Forumunun builki proqramı da - dünyanın ən aktual problemlərinin həlli üçün dövlət və özəl sektorları tərəfdaşlığa, dünya liderlərini enerji, iqlim və ticarət sahələrində birgə işləməyə çağırır”.

Deputat sözlərinə belə davam edib: ”Dünya İqtisadi Forumu gün ərzində müxtəlif mövzular üzrə çoxsaylı sessiyalara bölünür və iclaslarda iştirak nümayəndələrin şəxsi seçimindən daha çox təşkilatçı tərəfindən dəvət əsasında təmin olunur. Azərbaycanın Davos İqtisadi Forumunda iştirakı Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonrakı dövrü əhatə edir. Belə ki, Ümummilli liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan bir-birindən əhəmiyyətli iqtisadi uğurlara imza ataraq, dünya iqtisadiyyatının bir parçasına çevrilmişdir. Ölkəmizin uğurlarının dünyaya təqdimatında Forumun əhəmiyyəti danılmazdır.

Son illərdə Azərbaycanın Davos İqtisadi Foumunda iştirakı və fəallığını ilbəil artırması Prezident İlham Əliyevin rəhbərliyi sayəsində ölkəmizin davamlı uğurları ilə bağlıdır. Həmçnin keçirilən hər bir Forumda ötən il müzakirə olunan məsələlərin nəticələrinə əsasən yeni prioritetlər müəyyənləşdirilir və ”dünyanın vəziyyəti yaxşılaşdırılır” istiqamətində işlər davam etdirilir.

”Bakı İqtisadi Forumu”43-cü Davos İqtisadi Forumu bir çox cəhətdən yaddaqalan və səmərəli oldu. Belə ki, Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun, digər tərəfdən ölkəmizdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində əldə olunan uğurlara dəyərin təzahürü olmuşdur. Bu il Yanvarın 20-dək davam edəcək Foruma 30 ölkədən 2 700-dən çox iştirakçının 50-si dövlət və ya hökumət başçılarıdır. Bu il Dünya İqtisadi Forumu ”Parçalanmış dünyada əməkdaşlıq” mövzusu altında təşkil olunmuşdur.

Davos İqtisadi Forumunun gündəliyinə uyğun olaraq 2023-cü il üçün Qlobal Risk Hesabatı təqdim edilib. Hesabata uyğun olaraq mövcud vəziyyətdə təsiri hiss edilən qlobal risklər, 2025-ci ildə təzyiqi artacaq risklər və 2033-cü ildə qlobal səviyyədə aktuallaşacaq risklər vurğulanıb. 2023-cü ildə qlobal səviyyədə təsiri hiss ediləcək risklər bunlardır ”enerji təchizatı böhranı”, ”yaşayış xərcləri böhranı”, ”artan inflyasiya”, ”ərzaq təchizatı böhranı” və ”kritik infrastruktura kiberhücumlar” kateqoriyaları üzrə qruplaşdırılıb. 2025-ci ilə gedən yolda isə iki illik risklərə ”borc böhranları”, ”qiymət trayektoriyalarının sabitləşdirilməməsi”, ”iqlim dəyişikliyinin ləngidilməsində uğursuzluq”, ”iqlim dəyişikliyinə adaptasiyada uğursuzluq”, ”geniş yayılmış kibercinayətkarlıq” və ”kibertəhlükəsizlik” və ”ətraf mühitə böyük ziyan vuran hadisələr” daxil edilib. Beləliklə Azərbaycan üçün də önəmli olan bu platformada yeni geosiyasi və geoiqtisadi reallıqlar fonunda, Dünya İqtisadi Forumu dialoqun və dövlət-özəl sektor əməkdaşlığının vacibliyini artırmağa davam edir”.

***A.Vəli***

# 20 Yanvar-tariximizin qan yaddaşı

Təqvimə nəzər salsaq görərik ki, müasir Azərbaycan tarixində əlamətdar, yaddaqalan günlərlə yanaşı, üzüntülü, faciəvi həm də qürurverici günlər də vardır. Məhz ” 20 yanvar ” tarixi belə günlərdən biridir. SSRİ deyilən böyük bir imperiya süquta uğramaq üzrə idi. O vaxtkı SSRİ rəhbərliyinin ermənilərə verdiyi imkandan istifadə edərək ermənilər Qarabağda qətllər törədir, meşələri qırır, azərbaycanlılar yaşayan kəndlərdə kəndlərin boşaldılmasını tələb edirdilər. SSRİ rəhbərliyi isə bütün bunlara susurdular. Bakıda isə bütün bu olanlara etiraz olaraq xalq ayağa qalxır, mitinqlər keçirirdilər. Nəhayət, Azərbaycan xalqının gözünü qırmaq üçün Moskva xəlvət qərar qəbul edir və Sovet qoşunlarını gecə ikən Bakı küçələrinə salır, qırğınlar törədilir, insanlar şəhid olur. Bir vaxtlar sıralarında hərbi xidməti kişilik məktəbi adlandırdığımız Sovet Ordusu nakişilik edir, dinc əhaliyə qarşı atəş açır. Bütün bunlar tarixdir, acı tarix, milli qürurumuzun formalaşmağa başlandığı tarix. O vaxtı Azərbaycan tam yiyəsiz idi, rəhbərlik qaçmışdır, ölkə yiyəsiz idi. Məhz belə çətin və ağır zamanda o dövrdə Moskvada yaşayan Ulu öndər Heydər Əliyev səhətinin normal olmamasına baxmayaraq, Azərbaycanın daimi nümayəndəliyinə gəldi, mətbuat vasitəsilə bütün dünyaya SSRİ rəhbərliyinin birbaşa məsuliyyət daşıdığını bəyan etdi.Sonradan Azərbaycan rəhbərliyinə gətirilən Ulu öndər elə ”20 yanvar ” faciəsinə də hüquqi qiyməti prezidentlik dövründə geniş müzakirəyə çıxardıqdan sonra verdi.

Ümummilli liderimiz Heydər Əliyevin söylədiyi kimi, 1990-cı ilin 20 yanvarı Azərbaycan xalqının tarixinin həm faciəli, kədərli səhifəsi, həm də qəhrəmanlıq, rəşadət səhifəsidir.Ulu öndər Heydər Əliyev siyasətini dövrün tələblərinə uyğun davam etdirən Prezident İlham Əliyev 20 yanvar əlilləri və şəhid ailələrinə daim diqqət və qayğı göstərir. 20 Yanvar əlilləri və şəhid ailələri dövlət büdcəsi hesabına mənzillə təmin edilir. Əlillərin reabilitasiyası üçün sağlamlıq mərkəzləri yaradılıb. Həmçinin Dövlət başçımız 5 yanvar 2023-cü ildə 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və ”20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü”nün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalamışdır. Müvafiq Fərmana əsasən 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 manat müəyyən edilmişdir. Bütün bunlar Prezidentimizin Şəhid ailələrinə nə qədər dəyər verdiyinin, həssaslıqla yanaşdığının bariz nümunəsidir. Bu gün Azərbaycan öz müstəqilliyinin şərəfli dövrünü yaşayır. Müstəqil ölkə kimi regionun ən nüfuzlu söz sahibidir.Qürur hissi ilə deyə bilərik ki, bu gün həm ulu öndər Heydər Əliyevin, həm də ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhu şaddır. Çünki Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu düşmən ordusunu darmadağın edərək, 30 ilə yaxın müddət ərzində erməni tapdağında olan torpaqlarımızı işğaldan azad etdi.Prezident cənab İlham Əliyevin vurğuladığı kimi, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Bu şərəfli yolda canlarından keçmiş Şəhidlərimiz heç vaxt yaddan çıxmayacaq, Onların əziz xatirəsi hər zaman xalqımızın qəlbində yaşayacaqdır.






***Sahib Şükürov Göyçay rayon təşkilatının sədri***



# “Sərəncam inflyasiyanın vurduğu zərərləri kompensasiya edəcək”

“Bildiyimiz kimi, cənab Prezident tərəfindən ötən günlərdə 16-ya yaxın sərəncam imzalanmışdır. Bu, təqaüd, sosial müavinət, əməkhaqqı və digər ünvanlı sosial yardımların artırılması ilə bağlıdır”. Bu sözləri SİA-ya açıqlamasında iqtisadçı-ekspert Eyyub Kərimli deyib. Onun sözlərinə görə, bu il cari ilin büdcə xərclərinin 45 faizdən və 15 milyard manatdan yuxarı vəsaiti sosialyönümlüdür: ”Hazırda cənab Prezident tərəfindən imzalanan sərəncam 1 milyon 900 minə yaxın insanı əhatə edəcək. Bu artım üçün illik büdcədən 750 milyon manat vəsaitin ayrılması nəzərdə tutulub.

Bu sərəncamda 60 minə yaxın sosial müavinət alan insanların vəsaitlərinin artırılması nəzərdə tutulub. Həmçinin, bəzi vəsaitlərdə 66, 7 faiz artım nəzərdə tutulub. Bu, ilk dəfə uşağı olanlar və ölümlə bağlı birdəfəlik müavinətlərə şamil olunub”.

Eyyub Kərimli sözlərinə belə davam edib: ”Həmçinin, minimum əməkhaqqının 300 AZN-dan 345 AZN-na qaldırılması və minimum pensiyanın 240 AZN-dan 280 AZN-nə arıtırılması nəzərdə tutulur. Sözsüz ki, bu sərəncam insanların rifahının yüksəlməsinə, əhalinin sosial həssas təbəqəsinin gəlirlərinin artmasına töhfə olacaq.

Bu sərəncam əsasında Nazirlər Kabinetinin qərarına əsasən vahid tarif cədvəli ilə əməkhaqqı alan insanlara şamil olunur. Onların da 19 bölümdən ibarət vahid tarif cədvəlində məvacib alanların da maaşı 15 faiz artım təşkil edəcək. Bilirsiniz ki, ötən il bizdə böyük inflyasiya baş verdi. Bu da insanların rifahına mənfi təsir göstərdi. Bu sərəncam inflyasiyanın vurduğu zərərləri kompensasiya edəcək”.

***Ayşən***

# 20 Yanvar faciəsi:

## xalqımızın azadlıq mübarizəsinin şanlı və qanlı səhifəsi






Azərbaycan xalqının azadlıq mübarizəsi tarixinin şanlı səhifələrindən olan 20 Yanvar hadisələrindən 33 il ötür. Bu hadisə eyni zamanda şərəf və qürur tariximizdir. Çünki bu, xalqımızın azadlıq mübarizəsinin şanlı qəhrəmanlıq səhifəsidir. O dövrdə süqut ərəfəsində olan SSRİ-nin rəhbəri Mixail Qorbaçovun göstərişi ilə sovet hərbi birləşmələri Bakıda və daha sonra digər bir sıra bölgələrdə mülki əhaliyə qarşı qanlı qırğın törətdi. Nəticədə, Bakıda və respublikanın rayonlarında 147 nəfər qətlə yetirildi, 744 nəfər yaralandı, 841 nəfər isə həbs olundu. Bu, azadlıq və müstəqillik idealı ilə yaşayan, öz hüquqlarını tələb edən Azərbaycan xalqına qarşı qətliam idi. Bu səbəbdən də, 20 Yanvar hadisəsi Azərbaycan xalqının məruz qaldığı ən qanlı faciələrdən biri kimi tarixə yazıldı.



Azərbaycan xalqının belə bir təhlükə ilə üz-üzə qalmasına baxmayaraq, o vaxt respublikamıza rəhbərlik edənlər bu məsələyə biganə qaldılar, hər vəchlə hadisənin mahiyyətini gizlətməyə çalışdılar. Törədilmiş cinayət və onun nəticələri aşkar olduğu halda, respublika rəhbərliyi olayların mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Xalqın tələbi ilə Azərbaycan SSR Ali Sovetinin 1990-cı il yanvarın 22-də 20 Yanvar faciəsi ilə bağlı çağırılmış sessiyasına respublikanın əksər siyasi və dövlət rəhbərlərinin gəlməməsi isə onların xalqın taleyinə biganə qaldıqlarını bir daha təsdiq etdi. O zamankı respublika rəhbərliyi, hətta şəhidlərin - 20 Yanvar qurbanlarının dəfn mərasimində belə iştirak etmədilər. Bu hadisələrin fonunda xalqın mübarizəsini siyasi məqsədləri üçün sui-istifadə edən Azərbaycan Xalq Cəbhəsinə rəhbərlik edənlərin də gerçək xislətini ortaya çıxardı. Daha doğrusu, dəfələrlə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verilməsi tələbi ilə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra nədənsə bu mövzunu "unutmağa" başladı. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi-hüquqi qiymət vermək üçün öz imkanlarından istifadə etmədilər, heç bir təklif və təşəbbüs, iradə ortaya qoymadılar. Beləliklə, faciədən uzun müddət keçsə də, SSRİ tərəfindən xalqa qarşı törədilmiş ağır cinayətə siyasi-hüquqi qiymət verilməmişdi.



Yalnız ulu öndər Heydər Əliyev tarixi və mənəvi-siyasi məsuliyyəti öz üzərinə götürməklə taleyüklü məqamda liderlik və xalqın yanında olmaq nümunəsi ortaya qoydu. Hadisənin ertəsi günü həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını, SSRİ hakimiyyətini dünya ictimaiyyəti qarşısında şiddətli şəkildə qınadı və günahkarların cəzalandırılmasını tələb edən bəyanat verdi. Daha sonra Ümummilli Liderimizin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsinə ilk siyasi qiymət verdi. Bununla bağlı Naxçıvan MR Ali Məclisi 21 noyabr 1990-cı il tarixli qərar qəbul etdi. Ulu Öndər 1993-cü ilin iyununda hakimiyyətə qayıtdıqdan sonra isə ölkə rəhbəri kimi mühüm addımlar atdı. Belə ki, Ümummilli Lider Heydər Əliyev 1994-cü il yanvar ayının 5-də 20 Yanvar faciəsinin dördüncü ildönümünün keçirilməsi ilə bağlı Fərman imzaladı. Fərmanda Milli Məclisə tövsiyə olunurdu ki, faciəyə tam siyasi-hüquqi qiymət verilsin. 1994-cü il mart ayının 29-da ölkə parlamenti tərəfindən "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" adlı xüsusi qərar qəbul edildi. Bununla da, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmiş oldu.

Ulu Öndərimizin xalqımızın azadlığı, müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərimizin xatirəsinə ehtiramı, bu istiqamətdə həyata keçirilən diqqət və qayğı siyasəti bu gün də yüksək səviyyədə davam etdirilir. Belə ki, Azərbaycan xalqına qarşı törədilən müxtəlif xarakterli cinayətlərdən, xüsusən də son onilliklərdə yaşanan faciələrdən zərər çəkənlərə qayğı göstərilməsi Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Bu baxımdan, 20 Yanvar faciəsi istisna deyil. Azərbaycanda 20 Yanvar faciəsinin qurbanları da daxil olmaqla, bütün şəhid ailələrinə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Eyni zamanda, 20 Yanvar faciəsi zamanı əlil olmuş şəxslər də hər zaman dövlətin, şəxsən Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Cənab Prezidentin bugünlərdə imzaladığı fərman və sərəncamlar ilə bu kateqoriyadan olan insanların sosial müdafiəsi daha da gücləndirilib. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva 20 Yanvar şəhidlərinin ailələrinə və əlillərinin problemlərinə daim böyük qayğı ilə yanaşır.

Ümumiyyətlə, Azərbaycan xalqı bütün şəhidlərimizin əziz xatirəsini daim uca tutur. Bu mənada, 20 Yanvar faciəsi unudulmur, xalqımız isə şəhidlik zirvəsinə ucalmış qəhrəman övladları ilə qürur duyur!

***Samir Vəliyev***
***Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının sədri***



# Lənət sənə, belə ana!

**MƏTANƏT**

Düşünürsən ki, Allah belələrinə nə üçün övlad verir ki, bunlar da onun qədrini bilməyələr, atalar küçəyə, həm də 10-15 günlük uşağı. Soyuqdan donub ölmüş uşağın görüntülərini sosial şəbəkələrdə ürək ağrısı ilə izlədik. Və əminəm ki, onu izləyənlərin hər biri də həmin o ana haqqında mənim söylədiyim sözləri deyiblər: lənət sənə, belə ana.

Ana. Bu üç hərfdən ibarət, lakin çox böyük bir məna daşıyan, hər birimizin qarşısında baş əydiyimiz adı bu lənət olmuş qadın daşıya bilməz. O, analıq hissinin nə olduğundan xəbərsiz, cani və qatildir. Şərt uşağı sadəcə 9 ay bətndə gəzdirmək deyil. Bəli, bu hələ analıq da deyil. Analıq övladını ağuşuna alıb ona bir damla süd verəndən, onun ətrini ciyərlərinə çəkəndən, yuxusuz gecələr keçirəndən, onun səsinə şirin yuxudan dik atılanda formalaşır. Analıq övladının hər gün, hər ay bir az da böyüməsində, ona qayğı və nəvazişdədir. Analıq bir qadının gözünün övladının gözünə dikilməsindədir.

Bəli, ana olmaq tək uşağı dünyaya gətirmək deyil. Bu 9 ayın da böyük əziyyətləri, stressləri, özünəməxsusluqları olsa da, görünür ki, bu, bütün qadınlarda da eyni deyil. Bu günlər övladını küçəyə ata o qadın, o ana kimi. Çox yəqin ki, o uşağı dünyayagətirmə istəyi onda olmayıb. Bu, təsadüfi bir hal olub. Və o da çox yəqindir ki, həmin o qadın ötən ayların hər birini çox səbirsizliklə gözləyib ki, uşaq doğulsun və onu atmaqla xilas olsun. Azadlığa çıxsın, azad həyatını yaşaya bilsin. Bəlkə də aylardı ki, gizlənmişdi haradasa. İnsanlar arasına çıxmırdı, görən olar deyə. Uşaq bəlkə də aylardır ki, bu qadının ayağına kəndir olub. Belə imiş ki, qadın ayağından çıxardığı kəndiri dünyaya gəlişi cəmi 10-15 gün olan övladının boynuna keçirdi və onu bazar torbasına qoyub məişət tullantısı kimi küçəyə atdı.

Siz o uşağın üzündəki ifadəni seyr etdinizmi? Onun üzündə yazılanları oxudunuzmu? Onun üzündə bu dünyadan ağlaya-ağlaya qoparkən donuqlaşmış ifadəni gördünüzmü? Bu görüntülər o "Anaya" ünvanlanan sualları yağdırırdı: nə idi mənim günahım? Nə üçün məni bu qədər təhqir etdin? Nə üçün mən başqa uşaqlardan bu qədər seçilən oldum? Nə üçün mənim yerim isti bir ana qucağı deyil, qışın soyuqlu-sazaqlı küçələri oldu?

Lənət olsun sənə, ana. Lənət olsun məni dünyaya gətirdiyin günə. Lənət olsun mənim taleyimin sənin taleyinlə birləşdiyi günə

Ölkəmizdə yüzlərlə ailələr var ki, bir uşaqdan yana, necə deyərlər, burunlarının ucu göynəyir. Belə ailələrdən əksəriyyəti bir övlada görə dağılır. Bir-birini candan sevən iki gənc bir uşaq üçün bəzən zorla bir-birindən qoparılır. Həyatları alt-üst olur. Belə olan təqdirdə sən necə qıyıb bu uşağı küçəyə atırsan, ay lənət olmuş ana. Bu, kiçik bir canlıya sənin böyük saygısızlığındır. Qatilliyini sübut edən amildir. Şərt o deyil ki, bir insanı öldürüb qatil olasan. Elə onun ölməsi məqsədilə attığın addım da qatillikdir.

Necə qıydın, bu körpəyə, ay bağrı daş qadın! Necə qıydın. Sən bədənində ürək daşımırsanmı? Nə üçün başqasına olan nifrətini bu dilsiz-ağızsız uşağa verirsən?

Sən heç qadın adına da layiq deyilsən. Sən qadın adına ləkəsən. İnsanlar bir qarışqanı ayaqlamamaq üçün diqqətli olduğu təqdirdə bir uşağı torbaya qoyub küçəyə atmaq, gör bir nə deməkdir. Bunun üçün səni nə zaman, nə Allah, nə də tanıyanlar bağışlayacaq. Həyatda atdığın bütün addımlar belə uğursuz olacaq. Heç vaxt hansısa bir iş dalınca gedib gülə-gülə dönməyəcəksən. Çünki o uşağın ahı hər zaman səninlə yol yoldaşı olacaqdır.

Belə qadınlar, "analar" çoxdur. Qatil qadınlar. Hələ gördüyümüz budur, görmədiyimiz atılmış uşaqları isə biz görməsək də, Allah görür. Elə Allah da belə qadınlara, analara lənət eləsin. Qadın, ana adına ləkə olanlara ar olsun!

# Araik-Vardanyan qarşıdurması...

## Separatçıların başçısı niyə aradan çıxmaq istəyir?

***Azərbaycanın Qarabağ iqtisadi rayonunun ermənilər yaşayan ərazisində böhran yaranıb. Ancaq Ermənistanın hakim dairələrinin və Qarabağdakı qondarma qurumun "rəhbər"lərinin iddia etdikləri kimi "humanitar böhran" deyil, siyasi böhran. Belə ki, son vaxtlar baş separatçı-terrorçu Araik Arutyunyan və rusiyalı cinayətkar, Qərbin sanksiyalarından yayınmaq və şəxsi mənfəətləri üçün qeyri-qanuni şəkildə Qarabağa "ezam olunmuş" "dövlət naziri" Ruben Vardanyan arasında narazılıq son həddə çatıb. Bir neçə gün öncə Ermənistan mətbuatında Arutyunyanın Vardanyanı "vəzifə"sindən uzaqlaşdırmaq istədiyi, hətta bununla bağlı "əmr"in hazır olduğu barədə məlumatlar yayıldı. Hazırda Ermənistanın siyasi dairələrinə də sirayət etmiş, xüsusilə Vardanyanla bağlı onun əleyhdarları və tərəfdarları olmaqla iki cəbhənin yaranmasına səbəb olmuş gərginliyin davam etdiyi bildirilir.***











Xəbərlərə görə, Qarabağdakı qondarma qurumun dırnaqarası "prezident"inin özü də istefa vermək, "parlament"i buraxmaq və yeni "seçki"lərin keçirilməsi istəyində olduğunu, bunu hazırkı vəziyyətdə yeganə çıxış yolu kimi gördüyünü deyib. Arutyunyanın bu qərara Qarabağdakı mülki erməni əhalisi arasında gündən-günə artan narazılıqlar səbəbindən gəldiyi, onun yaranmış vəziyyət fonunda "çamadanlarını yığdığı" və həm məsuliyyətdən, həm də sözün həqiqi mənasında qaçıb aradan çıxmağa çalışdığı bəlli olsa da baş separatçı yanvarın 17-də "deputat"larla qapalı görüşdə bəhanə kimi Laçın yolunda yaranmış vəziyyəti göstərib. Daha doğrusu, Xankəndi-Laçın yolunun Şuşa ərazisindən keçən hissəsində Qarabağdakı milli sərvətlərimizin erməni quldurları tərəfindən talanmasına, ekologiyamıza qarşı törədilən barbarlıq aktlarına etiraz məqsədilə Azərbaycanın qeyri-hökumət təşkilatlarının və ictimaiyyət nümayəndələrinin, ekofəalların, könüllülərin iştirakı ilə 2022-ci il dekabrın 12-dən başlayaraq 39 gündür fasiləsiz keçirilən aksiyaların dayandırılması üçün qeyri-rəsmi tələbləri.

Araik hazırda Azərbaycanla danışıqlar aparılmadığını, tələblərin onlara Rusiya sülhməramlıları vasitəsilə çatdırıldığını bildirib. Erməni mediasının Qarabağdakı qondarma qurumun "prezident"inə istinadən yaydığı məlumata görə, Azərbaycan Laçın yolundakı aksiyaların dayandırılması üçün ilk növbədə cinayətkar Vardanyanın ölkəmizin ərazisini tərk etməsini tələb edib. Digər tələblər isə Qarabağda ermənilər tərəfindən qeyri-qanuni istismar olunan "Qızılbulaq" qızıl və "Dəmirli" mis-molibden yataqlarında istismarın dayandırılması və həmin yataqlarda azərbaycanlı mütəxəssislər tərəfindən monitorinqlərin keçirilməsinin təmin edilməsi,

Rusiya sülhməramlı kontingentinin Laçın yolunun Ermənistanla sərhədindəki nəzarət-buraxılış postlarında X-ray rentgen skaner cihazlarının quraşdırılması və yoldan hər iki istiqamətdə keçən yüklərə Azərbaycanın aidiyyəti qurumlarının nümayəndələrinin nəzarət etməsi və qanunsuz erməni silahlı birləşmələrinin istifadəsində olan Ermənistan silahlı qüvvələrinə məxsus hərbi texnikanın ölkəmizin ərazisindən çıxarılmasıdır.

Qeyd edək ki, sadalanan tələblərin bir qismi Laçın yolundakı azərbaycanlı aksiyaçılar tərəfindən də səsləndirilib və kifayət qədər əsaslıdır. Belə ki, Azərbaycan, Rusiya və Ermənistan dövlət başçıları tərəfindən imzalanmış 10 noyabr 2020-ci il tarixli Bəyanatda da silahlı terrorçuların və hərbi texnikanın Qarabağdan çıxarılması, Laçın yolunun yalnız dinc məqsədlər üçün istifadə edilməsi ilə bağlı bəndlər mövcuddur. Ancaq Azərbaycanı əsassız olaraq həmin Bəyanatın müddəalarını pozmaqda günahlandırmağa çalışan Ermənistan rəhbərliyi iki ildən artıq vaxt keçməsinə baxmayaraq nəinki öz ordusunun tör-töküntüsünü geri çəkməyib, üstəlik dinc məqsədli istifadə üçün nəzərdə tutulmuş Laçın yolu vasitəsilə Qarabağdakı terrorçulara silah-sursat, texnika daşınmasını həyata keçirib. Bu baxımdan Azərbaycanın tələblərinin ciddi əsasları var və qeyd-şərtsiz yerinə yetirilməlidir.

Araik Arutyunyan qapalı iclasdakı çıxışı zamanı etiraf edib ki, vəziyyət onlar üçün kifayət qədər ağırdır, hələ daha çətin günlər qarşıdadır və "divara dirəniblər". Görünür, baş separatçı-terrorçu Qarabağdakı mülki erməni əhalisinin baş verənlərə çox dözməyəcəyini, etirazların artacağını, dinc insanların yaşadıqları çətinliklərin səbəbkarlarından, yəni, ondan və Vardanyandan hesab tələb edəcəklərini yaxşı anlayır. Odur ki, bütün mümkün vasitələrlə aradan çıxmağa çalışır. Yenə də erməni mətbuatının iddiasına görə, Ermənistanın baş naziri Nikol Paşinyan da Vardanyanın "dövlət naziri" kimi qalmasının tərəfdarı deyil və onu Qarabağın erməni icması ilə Azərbaycanın birbaşa danışıqlarına maneə olaraq görür. Düşmən ölkədə cinayətkar Vardanyanla bağlı iki cəbhənin yaranmasının əsas səbəblərindən biri də budur.

Məlumdur ki, keçirilən aksiya nəticəsində Laçın yolunda hərəkət dayandırılmayıb və Qarabağdakı hər hansı "böhran"ı bu səbəblə əlaqələndirmək yalan və iftiradan başqa bir şey deyil. Hər gün sözügedən yoldan Rusiya sülhməramlılarının təminat maşınları, Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər, dərman, tibbi ləvazimatlar və ərzaq daşıyan maşınlar hər iki istiqamətdə sərbəst hərəkət edirlər. Görünür separatçıları əsas narahat edən yoldan əvvəllər olduğu kimi digər qanunsuz məqsədlər üçün istifadəsinə imkan verilməməsidir.

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Litva Prezidenti Gitanas Nauseda ilə görüşündə Laçın-Xankəndi yolunun mülki şəxslər və humanitar təyinatlı yüklərin keçidi üçün açıq olduğunu növbəti dəfə bəyan edib. Dövlətimizin başçısı Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərimizdə Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarına son qoyulmasının və kriminal ünsürlərin ərazidən çıxarılmasının vacibliyini diqqətə çatdırıb, Ermənistan tərəfinin ötən iki ildən artıq müddət ərzində Laçın yolundan minaların, silah-sursatın və şəxsi heyətin daşınması üçün istifadə etdiyini bildirib. Litvalı həmkarını yoldakı hazırkı vəziyyətlə bağlı məlumatlandıran Azərbaycan Prezidenti bildirib ki, Ermənistanın beynəlxalq ictimaiyyəti çaşdırmaq məqsədilə Laçın yolundakı hadisələrlə əlaqədar manipulyasiya ilə məşğul olur və yalan məlumatlar əsasında guya yolun bağlı olduğunu iddia edir. Halbuki yol mülki şəxslər və mülki təyinatlı yüklərin keçidi üçün açıqdır, həmçinin BQXK-nin xətti ilə humanitar yüklərin sərbəst hərəkəti təmin edilir.

Dövlət başçısının da qeyd etdiyi kimi, Laçın yolu bağlanmayıb və humanitar məqsədlər üçün açıqdır. Ancaq bu açıq yolu öz qaranlıq məqsədləri üçün "bağlı yola çevirmək" istəyən Araik-Vardanyan cütlüyü üçün deyəsən bütün yollar bağlanıb, separatçıların başçısının özünün dediyi kimi, "divara dirəniblər". Özü də ermənilərin özləri tərəfindən. Bu da cinayətkarlar üçün son deyil - "daha çətin günlər hələ qarşıdadır"...

**Mahir Rəsuloğlu**

# İlham və Fərizə:
# bir sevgi hekayəsi

**Həyat sevgilərlə, bu sevgilərdən yaranan sevinc və kədərlərlə doludur. Sevgi-bu müqəddəs hiss kimini xoşbəxt, kimini bədbəxt edir, kimi onu bir ömür doyunca yaşayır, kimi isə sevgi adlı yolçuluqda nakam bir yolçuya çevrilir. Bu yolda görünən yalnız xatirələr və xəyallar olur.**

1990-cı ilin 20 Yanvar faciəsi də minlərlə vətəndaşımızı nakam bir yolun yolçusuna çevirdi. O insanları ki, onlar ən ülvi sevgilərdən olan azadlığa qovuşmaq üçün neçə günlər idi ki, bir yola çıxmışdılar. Bu yolda onları nələrin gözləməsindən isə xəbərsiz idilər. Heç ağıllarına da gəlmirdi əslində qarşıda onları gözləyənlər.










***

1990-cı ildə 70 il idi ki, əldə etdiyimiz müstəqilliyimizi zorla əlimizdən alıb bizi əsarət zəncirlərinə bənd etmişdilər. 70 il idi ki, sovet imperiyasının qurub-yaratdığı "böyük vətənin" bir parçasına çevrilmişdik. Bu 70 ildə nə planlar hazırlanmışdı. Hazırca da saxlanırdı ki, 15 müttəfiqdən biri başını qaldıran kimi bu planlar işə düşsün. Çünki imperiyanı qorumaq üçün yalnız güclərdən istifadə olunmalı idi. Qırğınlar törədilməli, ölkələrə hərbi texnikalar göndərilməli, nəyin bahasına olursa-olsun, onların başlarının qalxmasına imkan verilməməli idi.

Azərbaycan isə tarixin müxtəlif dönəmlərində azad yaşamaq üçün mübarizəyə qalxmış, azad olmaq istəmiş, bunu çətinliklə əldə etsə də, əlindən alınmış, azadlığı qan rənginə boyanmışdı. Elə həmin rəng də nə vaxtsa xalqın bu hislərinin yenidən alovlanmasına səbəb olacaqdı...

***

Yanvarın 19-dan 20-nə keçən gecə artıq aylar idi ki, azərbaycanlılar azadlıq hislərinin yenə də illər öncəki kimi alovlanması səbəbi ilə meydanlara çıxır, azadlıq mücadiləsinə qoşulurdular. Həmin gün isə bu mübarizənin qarşısını almaq üçün çoxdan bəri hazırlanan plan həyata keçirilməli idi. İmperiyanın qaniçən ordusu Bakıya girməli və azadlıq sözünü dilinə gətirən insanları susdurub getməli idi.

Planlaşdırılan kimi də oldu. Azadlıq meydanında minlərlə insanın üstünə tanklar, texnikalar yürüdüldü. Yaşlı, uşaq, gənc, qoca, qadın, kişi deyilmədi, bütün meydan, ətraf güllə yağışına tutuldu. Həmin gecə nə həyatlar susdu, nə arzular yarımçıq qaldı. Azadlıq meydanının azadlıq fədailəri bir gecənin qurbanına çevrildilər...

***

Onlar arasında faciədən 33 il keçməsinə baxmayaraq sinəmizi hələ də göynədən, ailələrinin təməli cəmi altı ay öncə qoyulmuş İlham və Fərizə adlı gənclərimiz də vardı. Xeyr, Fərizə o meydanda deyildi. O meydandakı İlhamın, bəli, 6 ay öncə ailə qurduğu İlhamın qəlbində idi.

İlham o gecə Azadlıq meydanına dostları ilə getmişdi. Lakin qəlbində Fərizəni də aparmışdı. Seçib sevdiyi, ailə həyatı qurduğu, bir ömür bir yerdə yaşlanmağa söz verdiyi Fərizəni. Fərizə ona "getmə" demişdi. Lakin azadlıq eşqi də Fərizəyə olan sevgisi qədər ülvi olan İlham bu yoldan qala bilməmişdi. "Gedirəm, amma tez gələcəyəm, narahat olmayın",- deyərək, arxasınca narahatlıqla baxan anabacısına, sevgilisinə söz vermişdi.

Lakin söz verməklə deyil. O dəhşətli gecədən kim sağ-salamat çıxacağına söz verə bilərdi ki... Bu söz sadəcə bir təsəlli idi. Arxada narahat keçirənlərə verilən bir ümid və təsəlli. O gecə evlərdən bayıra çıxardıqlarını ölümə aparırdı. Bu ölüm yolçuluğunda yalnız təsadüf nəticəsində sağ qalmaq mümkün olardı. Bu mümkünlər isə mümkünsüzlərin içərisində idi. Onları qurtaran yalnız bir alın yazısı, tale payı ola bilərdi...

***

Fərizənin həmin gecə gözlərinə yuxu gedə bilərdimi? Əsla. Sanki ürəyinə dammışdı İlhamın geri qayıtmayacağı. Deyirlər axı, candan sevəndə olacaqlar sənə agah olur. Fərizə də İlham evdən çıxarkən ona agah olan bir hisslə anasına "qoyma, ana, İlhamı getməyə qoyma",- demişdi. Lakin İlhamı saxlamaq olardımı? Biz axı İlham kimi minlərlə oğullarımızı görmüşük. Vətən sevdalı, torpaq məhəbbətli oğullarımızı. Onları nədən, haradan saxlasan da, Vətən, torpaq adı olan yerdən əsla saxlamaq mümkün deyil.

Azadlıq meydanına toplaşanlar da Vətənimiz üçün, onun azadlığı, müstəqilliyi, asılılıqdan qurtuluş yolu, azad yaşaması üçün toplaşmışdılar. İlhamı Vətənin azadlığına gedən bu yoldan kim saxlaya bilərdi. Buna kimin gücü çatardı...

İlham addımlayırdı... Qəlbində sevgilərlə addımlayırdı. Vətən üçün ölümə doğru addımladığını bilməsə də, irəliyə doğru dostları, tanıdıqları ilə birgə addımlayırdı. Onların hər birinin də qəlbində Vətəndən savayı sevgilər vardı: yar sevgisi, ata sevgisi, ana sevgisi, övlad sevgisi... Və yaşamaq sevgisi...

Lakin o gecə qətlə yetirilən yüzlərlə insanın ürəyində minlərlə belə sevgilər nöqtələndi. Tək Vətən sevgisindən başqa. Çünki həmin an Vətən sevgisi bütün sevgiləri üstələmişdi. Ölümün bir addımlığında belə heç kim, heç bir qüvvə onu nöqtələyə bilməzdi. Elə buna görə də Vətən oğulları canlarından keçdilər, lakin Vətən üçün iradələrindən gönmədilər. Şəhid oldular, yaralandılar, qazi oldular, "Vətən sağ olsun",- dedilər, bir addım da geri çəkilmədilər...

***

O gecə İlhamın da həyatına son nöqtəni qoydu. Lakin hələ evdəkilər bundan xəbərsiz idi. Fərizə çox narahatlıq keçirirdi. Səhərədək evdə o yana-bu yana var-gəl etmişdi. Saatlar ötür, lakin İlham qayıtmırdı. Ağlına, ürəyinə gələn başına gəlmişdi. Dünyalar qədər sevdiyi həyat yoldaşı şəhid olmuşdu. Xəbərsizdi. Xəbərsizdi ki, gecə İlham nə qədər qan itirib, şam işığında əməliyyata alınıb, həkimlər nə qədər cəhd göstərsələr də onu xilas edə bilməyiblər. Xəbərsizdi, hamı kimi, İlhamın ata-anası, bacıları, qardaşı kimi o da xəbərsizdi o qanlı gecənin sevdiyi insana nələr etdiyindən.

Səhər açılacaqmı? Fərizə tək bunu düşünürdü. Bu qara gecəni hansısa bir gün işığı aydınladacaqmı? "İlahi, açılsın səhər, bəlkə İlhamdan bir xəbər gətirər yeni səhər",- deyirdi, vurnuxurdu. Lakin saatlar bir-birini əvəz edir, saatın əqrəbləri öz dəyişməz ahəngi ilə eyni işi görməsi ilə artıq Fərizənin səbrini tükəndirirdi. O, İlhama nə isə olduğunu artıq gün kimi aydın görürdü. Lakin bu fikirləri dərhal özündən kənarlaşdırır, onların ürəyinə, ağlına yaxınlaşmasına imkan vermirdi.

O qara xəbər isə qapının ağzındaca dayanmışdı. An axtarırdı ki, içəriyə girib Fərizənin dünyasını qana boyasın, alt-üst etsin bu evdə. Cəmi 2-3 gün əvvəl İlhamla köçdükləri bu yeni evdə. Min bir xəyal qurduqları, bütün otaqları artıq xəyallarındakı istəklərlə doldurduqları, pərdələrini asdıqları, çilçıraqlarını yandırdıqları bu evə an qərib idi ki, bu acı xəbər girsin. Fərizənin həyatını darmadağın etsin...

***

Al qan içində olan İlhamı xəstəxanadan birbaşa evə gətirə bilmirlər. Çünki bunu görənlərin ürəyi elə o andaca partlaya bilərdi. Qardaşı onu məscidə aparıb yudurdur, sonra gətirir evlərinə. Axşamdan bəri sükuta dalan Fərizə 20 Yanvar "hədiyyəsini" alır o səhər. O hədiyyə Fərizənin gəncliyini alır, ona vaxtsız bir qocalıq bəxş edir. Xəyallarını, arzularını, istəklərini alır, yerinə bütün sualları, istəkləri sükutla qarşılamaq kimi bir durğunluq verir. Bir andaca dünyası başına yıxılan Fərizə artıq heç nə düşünmür. Sadəcə İlhamın yanında olmaqdan başqa heç nə...

Fərizəni aldığı qərardan heç kim döndərə bilmir. Evdə onun qərarını hərəkətlərindən hiss edirlər, ona fikrindən vaz keçmək üçün yalvarırlar. Lakin Fərizə sanki kar olmuşdu. İlhamı bir daha görə bilməyəcək gözləri kor olmuşdu. Onu içindən gələn bir səs-2 aylıq körpəsinin səsi də yolundan qaytara bilməyəcəkdi.

Fərizə öz ailəsini İlhamın yanına daşıyırdı. Bətnindəki körpəsi ilə İlhama doğru yolçuluğa çıxırdı. O, yalnız sevdiyinin yanında xoşbəxt ola bilərdi. Bətnindəki körpə yalnız İlhamın yanında doğula, dünyaya gələ bilərdi. İlhamsız Fərizə də, körpəsi də tənha, yetim idi. Bu səbəbdən İlhamın yanında olmaqdan başqa çarə görə bilmədi Fərizə. Özünə də, körpəsinə də qıydı. Düşmənin qıydığı İlhama çatmaq, onun yanında olmaq üçün...

***

Elə həmin günlər İlham və Fərizə adlı bir dastan yarandı. Bir sevgi hekayəsi dastana çevrildi. Bu dastan indiyədək oxuduğumuz, tanış olduğumuz dastanlardan çox fərqli bir dastandır. Çünki burada Vətən sevgisi bütün sevgilərdən yüksəkdə dayanır. İlhamın Vətənin azadlığı, müstəqilliyi uğrunda mübarizəyə qatılması, bu yolda mücadilə edərək şəhid olması və sevgilisi-həyat yoldaşı Fərizənin İlhamın yoxluğunda özünün var olmasını heç cür görə bilməməsi bu dastanı bütün dastanlardan fərqli edir. İndiyədək oxuduğumuz bütün dastanlardan...

30 iyun 1989-cu ildə qurulan bir azərbaycanlı ailəsi 6 ay sonra belə bir sonluqla nöqtələnir. İlham Vətən uğrunda, Fərizə İlham uğrunda, bətnindəki körpə isə həyatın amansızlığı uğrunda şəhid olurlar. İndi Şəhidlər xiyabanında 2 qəbirdə 3 can uyuyur: bir ailənin 3 üzvü. İlham, Fərizə, bir də Vətən. Bəli, Vətən qoyuram onların övladlarının adını. Çünki Vətən uğrunda mübarizənin övladıdır o. Çünki Vətən yolunda ölümün gözünün içinə dik baxan, gəncliyindən, həyatından keçən atanın övladıdır. Vətənin Vətən adlı övladıdır.

Fərizə isə Azərbaycan qadınının ümumiləşmiş obrazıdır. Şəhid anası, şəhid yoldaşı obrazıdır. Oğlu şəhid olmuş qarayaylıq, saçları ağappaq olan analarımızın, əri şəhid olmuş, saçının bir tərəfini ağ, bir tərəfini qara hörüb övlad böyüdən qadınlarımızın obrazıdır. Nişanlısı, sevgilisi Qarabağ müharibələrində, ölkəmizin ərazi bütövlüyü uğrunda gedən savaşlarda şəhid olan, qəlblərinə ömürlük bir düyün vurulan qızlarımızın obrazıdır. Bütün oxuduğumuz dastanlardakı qadın obrazlarından fərqli bir obrazdır. Elə bunun üçün də 30 iyun Azərbaycanda Sevgililər günüdür. Qoy bütün ailələrimiz beləcə, Vətən sevgisi ilə qurulsun. Biz var olduqca Vətənimizi şəhidlərimiz, qazilərimiz kimi qoruyaq. Onların hər biri gənc nəsillərə nümunədir. Gənclərimizin onlardan əxz etməli çox məqamlar var.

OÇERK

***Mətanət Məmmədova***

# 1978-ci ildə baş vermiş Ağdam terroru!

*Gürcü publisisti Feliks Sersvadzenin yazdıqlarından...*

**Azərbaycanlılara qarşı erməni terroru bütün dövrlərdə, eləcə də SSRİ zamanında da baş verib və bu gün ermənilər tərəfindən həyata keçirilmiş çoxsaylı qanlı terror əməllərinin sayhesabının da kifayət qədər çox olduğu kimsəyə sirr deyil. 1980-ci illərdə Moskvada baş vermiş bir neçə terror aksiyaları da buna misal kimi göstərilə bilər. Lakin daha bir qanlı əməl də var ki, bəlkə də onun barəsində çoxları ya məlumatsızdırlar, ya da onu unudublar - 1978-ci ildə törədilmiş AĞDAM TERRORU!**









İnformasiya şəbəkələrinin birində qarşıma təsadüfən tanınmış gürcü publisisti, hazırda ABŞ-ın Florida ştatında yaşayan Feliks Sersvadzenin ”Unudulmuş genosid” kitabındakı məqaləsi çıxdı. Onu da qeyd edim ki, gürcü publisisti əsl həqiqətləri dediyinə və yazdığına görə daim erməni ekstremistləri tərəfindən təhdidlərə məruz qalıb və eyni zamanda, bu məqamlarda azərbaycanlılardan aldığı dəstəyinə görə də öz minnətdarlığını bildirib.

Beləliklə, həmin məqamı diqqətə çatdırırıq. 1978-ci ildə dəmir yolunun tikintisi başa çatmışdı və Qarabağın mərkəzi - Xankəndi Yevlax və Bakı üzərindən SSRİ-nin istənilən şəhəri ilə nəqliyyat rabitəsi qurmaq imkanına malik olmuşdu. Müəllif həmin yazısında sual edir: sizcə ”Dağlıq Qarabağ” erməniləri azərbaycanlılar tərəfindən hədiyyə edilmiş həmin dəmir yoluna görə öz minnətdarlıqlarını necə çatdırmışdılar? Tapdınız? Doğrudur! Birbaşa erməncəsinə - növbəti terror aksiyası ilə!

İndi isə həmin terror aksiyası barədə. Əsgəran stansiyasına 11 vaqon inşaat materialları çatdırılıb. Qatar dayandıqdan sonra ermənilər vaqonların hərəkət zamanı dayanmaması və özözünə hərəkət etməsi üçün vaqonların əyləc sistemlərinə müdaxilə ediblər.

”Əsgəran erməniləri özlərinə münbit vaxt tapan kimi vaqonlara tərəf ekskavator sürməklə və onun qazıntı aparan çanaq hissəsi ilə sonuncu vaqona zərbə endirməklə vaqonu hərəkətə gətiriblər. Nəticədə vaqonlar bir-birinə dəyərək hərəkətə başlayıblar və Ağdam stansiyası istiqamətində şütüyüblər”, deyə bildirilən məqalədə qeyd olunur ki, 11 vaqon Əsgəran Ağdam arasındakı 14 km-lik məsafəni saatda 100 km sürətlə qət edib və nəticədə Ağdam stansiyasına daxil olublar: ”Həmin vaxt orada başqa vaqonlar boşaldılmaq üçün dayanmışdılar və hərəkət edən vaqonlar da məhz bu vaqonlara zərblə dəyiblər. Zərbə nəticəsində Ağdam stansiyasına kifayət qədər zərər dəyib, dağıntılar yaranıb. Lakin ən qorxulusu bu idi ki, iki yükboşaldan fəhlə həlak olub. Onlar vaqonları boşaldarkən hansı təhlükə ilə qarşılaşacaqlarından məlumatsız olublar”.

Gürcü publisist qeyd edib ki, terror aksiyası sona qədər araşdırılmayıb. Təqsirkarlar isə müəyyən edilməyərək heç bir cəza almayıblar. ”Stepanakert” (Xankəndi) məhkəməsi yalnız iki vəzifəli şəxsi texniki-təhlükəsizlik qaydalarına əməl etməmələrinə görə formal şəkildə mühakimə edib.

Təkcə bu faktın özü də sübut edir ki, istər Ermənistanda, istərsə də Qarabağda yaşayan ermənilər daim azərbaycanlılara qarşı düşmən gözü ilə baxıblar və bir daha isbatlanıb ki, belələrinin hər hansı ”səmimi” davranışlarına inanmaq olmaz.

***Rövşən RƏSULOV***

# 2023-cü ildə Azərbaycanda taxıl böhranı olacaq?

**“Qlobal taxıl böhranının xeyli dərəcədə yumşalması müşahidə olunur”. Bu sözləri SİA-ya açıqlamasında millət vəkili, iqtisadçı Vüqar Bayramov bildirib.**

İqtisadçı qeyd edib ki, bu kontekstdə Azərbaycan bir tərəfdən taxıl ehtiyatını artırdı, digər tərəfdən isə taxıl idxalını davam etdirir: ”Qlobal səviyyədə praktik olaraq bu məsələnin asanlaşdığı bir zamanda taxılın qiymətində də əvvəlki dövrlərə nisbətən azaldığı müşahidə olunur. Hazırki dövrdə taxıl böhranının səngidiyini müşahidə edirik. 2023-cü il üçün gözləntimiz ondan ibarətdir ki, bu sahədə ciddi çətinliyimiz olmayacaq. Qlobal arenada baş verən hadisələr taxıl təminatına təsir göstərir. Bu hal gələcək dövrlərdə də özünü göstərəcək. Ancaq 2023-cü ildə Azərbaycanda taxıl böhranının yaşanacağı gözlənilmir”.

***Banuçiçək Hüseynli***





# Məsuliyyəti korrupsioner yetişdirən Avropa Parlamenti daşıyacaq!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

Bir müddət əvvəl Avropa Parlamentində baş verən korrupsiya olayı və həmin olayın bir ucunun ermənilərə bağlı olması faktı bu qurumu, sözün əsl mənasında, silkələmiş oldu. Yəni sübuta yetirildi ki, ötən il dekabrın 9-da Belçika polisinin Brüsseldə axtarışlar aparması və Avropa Parlamentinin vitse-prezidenti Eva Kaili də daxil olmaqla dörd nəfəri həbs etməsi bu qurumun nə qədər korrupsiya çirkabına bulaşdığını kifayət qədər isbatlayıb. Əbəs deyil ki, Belçika prokurorluğunun rəsmi bəyanatında da bildirib ki, istintaqda olan müttəhimlər Avropa Parlamentinin qərarlarına təsir göstərməyə imkan verən siyasi və ya strateji mövqeyə malik üçüncü şəxslərə külli miqdarda pul ödəməkdə və ya əhəmiyyətli hədiyyələr verməkdə şübhəli bilinirlər. İstintaq bu gün də davam edir və ehtimallar var ki, həbslərin sayı arta da bilər. Bütün bunlar öz yerində.

Lakin həmin olayın ardınca Avropa Parlamenti hələ də özünün siyasi oyunbazlıqlarından geri qalmır, üstəlik, ermənipərəstlik mövqeyini daha geniş arealda nümayiş etdirməyə çalışır. Buna misal kimi adıçəkilən qurumun yenidən Azərbaycanı hədəfə almasını göstərmək olar. Yanvarın 18-də dinləmələr keçirən qurumun erməni lobbisi tərəfindən pulla alınmış deputatları, yəni korrupsiyalaşmış şəxsləri Azərbaycanla bağlı qətnamə qəbul ediblər. Daha doğrusu, Azərbaycanı bütün ”günahlarda” ittiham atəşinə tutublar. Bəs həmin qərəzlər hansılardır?

Avropa Parlamentinin əsas məqsədlərindən biri Ermənistandan istifadə etməklə regionda Avropa İttifaqının missiyasının təsirini artırmaq və paralel olaraq Azərbaycanın, Türkiyənin və Rusiyanın maraqlarının qarşısını almaqdan ibarətdir.

Avropa Parlamenti tələb edir ki, Ermənistanın ərazi bütövlüyünə hörmət olunsun və Azərbaycan Silahlı Qüvvələri ötən ilin sentyabrında möhkəmləndiyi mövqelərini tərk etsin. Ancaq Avropa Parlamentində nədənsə Azərbaycanın ərazi bütövlüyünə edilməli olan hörmətdən bəhs edilmir, üstəlik, dünya birliyinin (!) Azərbaycanın ərazisi olaraq tanıdığı Qarabağda qalmağa davam edən qanunsuz erməni silahlılarının çıxarılması barədə bir kəlmə də olsun fikir səsləndirilmir (?!) Və biz üçtərəfli bəyanatda qəbul edilmiş bəndlərin İrəvan tərəfindən əməl edilməməsi faktı barədə də heç nə görmürük!

Əksinə, biz tamamilə əks və birtərəfli mövqe müşahidə edirik. Çünki sözügedən qətnamədə Azərbaycanın ərazi bütövlüyünə qarşı Avropa Parlamenti səviyyəsində hörmətsizlik müşahidə olunur və hansısa ”Dağlıq Qarabağ xalqı” haqqında bəhs edilir (???!!!)

Üstəlik, həmin Avropa Parlamenti Azərbaycanın ərazisində keçirilən ekoaksiyanı hədəfə almaqla ”Laçın dəhlizinin blokadaya alınması” barədə dəm vurur, amma ekoaksiyanın əsas səbəbləri barədə susur və illər uzunu yataqlarımızda aparılan qanunsuz işlərdən, xarici şirkətlərin cinayət əməllərindən, təbiətimizin - flora və faunamızın korlanmasından, terrora məruz qalmasından, ümumiyyətlə, bəhs etmir.

Belə bir qərarların isə əlbəttə ki, Azərbaycana təsir göstərməsi qeyri-mümkündür, çünki ədalətli olan da məhz Azərbaycandır. Ədalətsiz qərarın, qətnamənin verilməsindən təəssüf doğuracaq faktor isə, əlbəttə ki, buna qarşı dişsiz Avropa İttifaqının susqun davranışıdır. Ən azından, regionda sülhün bərqərar olması üçün ilkin vaxtlarda kifayət qədər cəhdlər göstərdiyi görünən Avropa İttifaqı şurasının rəhbəri cənab Şarl Mişel Avropa Parlamentinin bu oyunbazlığına qarşı heç olmasa yumşaq iradını bildirməli idi, amma təəssüf ki, bunu da müşahidə etmədik...

Beləliklə, növbəti anti-Azərbaycan xarakterli qətnamənin, yaxud bəyanatın səsləndirilməsinin Bakı üçün istisisoyuğu yoxdur. Bunun isti-soyuğu, əlbəttə ki, korrupsiyaya bulaşmış Avropa Parlamentinin imicinə olacaq. Çünki vaxt dayanmır, sürətlə irəliləyir və Ermənistan bu və ya digər şəkillərdə korrupsiya və rüşvətlər hesabına hansısa qurumlarda sənədlər qəbul etdirəcəksə, əslində, özünə pis perspektivlər yaradacaq. Sonrakı məsuliyyəti də əlbəttə ki, bu gün sərsəm qətnamələr qəbul edən Avropa Parlamentinin də üzərinə düşəcək. ”Hələ ki, gec deyil” ifadəsinin də işlədilməsinə artıq yer yoxdur. Gecdir və günahı da söz yox ki, qarşı tərəflər daşıyır...

# İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər nə vəd edir?

**Dünən Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklər müzakirə olunub. Belə ki, Məcəlləyə media münasibətləri ilə bağlı bir sıra dəyişikliklər təklif olunub. Bu dəyişiklikləri bəzi ekspertlər və media mənsubları mənfi qiymətləndirib. Lakin Medianın İnkişafı Agentliyinin İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklərlə bağlı açıqlamasında bildirilib ki, bu təkliflərə dərindən yanaşdıqda dəyişikliklərin bu sahədə yaranmış xaosu aradan qaldırmaq, hər şeyi hüquqi müstəvidə düzgün həll etmək məqsədi daşıdığı görünür.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

"İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər jurnalist fəaliyyətini məhdudlaşdırmır, əksinə bu vaxta kimi media etikasında əksini tapmış fundamental prinsiplərin qanun müstəvisində təsbit olunmasına xidmət edir.



Qeyd edilib ki, qanuni qüvvəyə minmiş məhkəmə qərarı olmadan şəxsin təqsirli olması barədə məlumatların dərc edilməsinə (yayımlanmasına) görə 3500 manatadək cərimə tətbiq edilməsi cərimənin maksimum həddidir və jurnalistə qarşı yönəlməyib. Bu hal baş verdikdə layihəyə əsasən, yalnız vəzifəli şəxslər 1000 manatdan 1500 manatadək məbləğdə, hüquqi şəxslər 2500 manatdan 3500 manatadək məbləğdə cərimə ediləcəklər. "Jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxiləyə, jurnalistin sorğusuna cavab verilməməsinə görə, habelə medianın informasiya qaynağının qorunması ilə bağlı dəyişikliklərdə əksini tapmış yanaşma media etikası ilə səsləşən, jurnalist peşəkarlığının artırılmasına təsir göstərən, eyni zamanda bu istiqamətdə dövlətin məsuliyyətini artırmağa yönəlmiş müddəadır.

Bununla yanaşı, göstərilən pozuntuya yol vermiş şəxslərə münasibətdə Cinayət Məcəlləsinin 163-cü maddəsi tətbiq edilir. Həmin maddəyə əsasən jurnalistlərin qanuni peşə fəaliyyətinə mane olma, yəni zor tətbiq etməklə və ya zor tətbiq etmə hədəsi ilə onları məlumat yaymağa və ya məlumat yaymaqdan imtinaya vadar etmə 500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır.

Eyni əməllər vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə 3 ilədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə 2 ilədək müddətə islah işləri ilə və ya 1 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Göründüyü kimi heç də iddia olunduğu kimi jurnalist fəaliyyətinin əhəmiyyəti azaldılmır, əksinə heç bir peşə fəaliyyəti üçün təmin olunmayan hüquqi mexanizm jurnalistlərinin maneəsiz fəaliyyəti üçün təmin edilir, bu istiqamətdə qanun pozuntusuna yol verən şəxslərə münasibətdə nəinki inzibati, həmçinin cinayət məsuliyyəti nəzərdə tutulur" - açıqlamada qeyd edilib.

Ümumiyyətlə, son illərdə media məkanında hökm sürən qanunsuzluq halları nə vaxtsa qanuni və hüquqi qaydada tənzimlənməli idi. Belə ki, bir çox saytlarda müxtəlif şəxslərin açıq təhqir olunması,



bhöhtan və şantaja məruz qoyulması halları çox müşahidə olunur. Media azadlığından sui-istifadə vətəndaş hüquqlarının kobud pozulmasına gətirib çıxarır. Bu səbəbdən bu məsələlər bütün ölkələrdə olduğu kimi qanunla tənzimlənməlidir. Cəzalar da adekvat olmalıdır. Təkliflərdə nəzərdə tutulmuş müddəalar- jurnalistlərin peşəkar fəaliyyətinə qanunsuz müdaxilə, jurnalistin sorğusuna cavab verilməməsi, habelə medianın informasiya qaynağının qorunması ilə bağlı müddəalar bu sahədə vəziyyəti ancaq yaxşılaşdıra bilər.

Belə ki, bəzi hallarda dövlət məmurları jurnalistlərin sorğularına cavab vermir və ya onların fəaliyyətinə müdaxilə edirlər. Hətta bəzən zor tətbiqi və ya hədə-qorxu ilə jurnalistləri məlumatı yaymamağa və ya hansısa məlumatı yaymağa məcbur edənlərə qarşı cəzaların olması vacibdir. Hazırda belə halların sayı kifayət qədərdir. Bununla bağlı cəzaların tətbiqi bu sahədə ciddi dəyişikliyə səbəb ola bilər.

Jurnalistin məlumat qaynağının məhkəmə qərarı olmadan açıqlanması həm hüquqi, həm mənəvi olaraq yolverilməzdir. Təkliflərdə bununla bağlı cəza mexanizmi də nəzərdə tutulur. Bunun olması həm jurnalistlərdə məsuliyyət yaradacaq, həm də mənbənin etibarına səbəb olacaq. Hər bir halda yeni dəyişikliklər qəbul olunsa bu məlumat azadlığının təmin edilməsi, jurnalistlərin fəaliyyətinin təmin edilməsi üçün daha böyük imkanlar yaradacaq.

***Elçin Bayramlı***

# 20 Yanvar faciəsi Azərbaycanın istiqlal yolunun ilk zirvəsidir

Qan yaddaşımıza əbədi həkk olunmuş 1990-cı il 20 Yanvar faciəsi tariximizin özündə faciə və qəhrəmanlığı ehtiva edən unikal səhifəsidir. 20 Yanvar hadisələrinə gətirib çıxaran səbəblərə nəzər salaq. 80-ci illərin ikinci yarısında Mixail Qorbaçov Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi vəzifəsinə təyin olunduqdan sonra "demokratiya", "aşkarlıq" siyasəti həyata keçirməyə başladı ki, bu da SSRİ-də siyasi vəziyyətin mürəkkəbləşməsinə səbəb olmuşdu. Bütün tarixi dönəmlərdə özlərinin çirkin niyyətlərini həyata keçirən ermənilər bu vəziyyətdən istifadə etməyə başladılar. Həmin illərdə Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətində fəaliyyət göstərən təxribatçı "Krunk" erməni ekstremist təşkilatı SSRİ-dəki və xaricdəki erməni "Milli müqəddəratın müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi erməni komitəsi"nin himayəsindən istifadə edərək fəaliyyətini gücləndirdi. "55-lər komitəsi" adlanan orqanın göstərişləri əsasında "Krunk" təşkilatı vilayətin erməni əhalisini Dağlıq Qarabağın Ermənistana verilməsini tələb etməyə çağırırdı. 1988-ci il yanvarın 25-də Ermənistanda yaşayan azərbaycanlıların ilk qrupu öz torpaqlarından didərgin salındı. Azərbaycanda ictimai-siyasi vəziyyəti gərginləşdirən bu hadisə erməni-azərbaycanlı münaqişəsinin törədilməsinə rəvac verdi. 1988-ci il fevralın 19-da Muxtar Vilayətin Ali Sovetinin sessiyasının keçirilməsi, DQMV-nin statusu məsələsinə baxılması haqqında SSRİ Ali Sovetinə müraciət qəbul edilməsi çağırışları altında kütləvi anti-Azərbaycan mitinqləri keçirildi. Elə həmin gün Bakıda da bu hadisələrə etiraz edən kütləvi mitinq təşkil olundu. SSRİ rəhbərliyinin ermənipərəst mövqeyi sayəsində baş verən hadisələrin, milli toqquşmaların qarşısı vaxtında alınmadığından 1988-ci il fevralın 28-də Sumqayıt hadisələri baş verdi. Həmin ilin noyabr ayında Topxana meşəsinin qırılmasına etiraz əlaməti olaraq ayağa qalxan Azərbaycan xalqı Azadlıq meydanına toplaşdı. Azərbaycan xalqının əzəli düşməni olan ermənilərin təkidi ilə vətənini müdafiə etmək istəyən millətimizə divan tutmaq planı hazırlanırdı. Belə ki, yanvarın 3-dən 6-na qədər Bakıda olmuş Moskva nümayəndələri Barannikov, Babkov və başqaları məxfi olaraq Gəncəyə gəlmiş SSRİ müdafiə naziri Yazov tərəfindən elə orada qəbul edilmiş xüsusi tapşırıqlar almış və Bakıda "Tayfun", yəni "Qasırğa" əməliyyatının planı hazırlanmışdı. Bu zaman Azərbaycan rəhbərliyinin səriştəsizliyi və sabit mövqeyinin olmaması Moskvanın respublikadakı "siyasətinin" reallaşmasına şərait yaradırdı. Yanvarın 13-də Bakıda bir erməni tərəfindən iki azərbaycanlının öldürülməsinə cavab olaraq yanvarın 13-14-də Bakının bəzi yerlərində ermənilərin təqib olunmasına başlandı. Bu, mərkəz tərəfindən düşünülmüş, taktiki baxımdan hərtərəfli hazırlanmış təxribat idi, çünki nə inzibati orqanlar, nə də hərbi hissələr tərəfindən baş verənlərə qarşı heç bir tədbir görülmədi. Azərbaycan xalqının milli-azadlıq hərəkatını boğmaq məqsədilə 1990-cı il yanvarın 19-da SSRİ Ali Sovetinin "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərmanı qəbul edildi. Lakin şəhər sakinləri bundan xəbərsiz idilər, çünki axşam saat 19:30-da televiziya stansiyasının enerji bloku partladıldıqdan televiziya yayımı kəsilmişdi. Bu təxribatı çox güman ki, xüsusi xidmət orqanları təşkil etmişdilər. Nəticədə, bakılıların əksəriyyəti fövqəladə vəziyyət elan edildiyini və qadağan saatı qoyulduğunu yalnız səhər saat 05:30-da Mirzə Xəzərin səsi ilə Azadlıq Radiosundan və vertolyotlardan atılmış vərəqələrdən xəbər tuta bildilər. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə, saat 23.30-dan etibarən xalqa divan tutulmağa başlandı. Bakıda olan Sovet qoşunları əsasən beş istiqamətdə hərəkət edirdi. Tanklar birinci Salyan kazarması tərəfdən hücuma keçmişdi. Biləcəridən Bakı şəhərinə gələn yolda, o zamankı "İskra" zavodunun qarşısında qurulmuş piket iştirakçıları qoşunların şəhərə gəlməyinin qarşısını almaq istəyirdi. Sovet qoşunlarının Binə-Qala yolu ilə hərəkəti 1990-cı il yanvarın 19-u saat 22:00 radələrində başlayıb. Azərbaycan xalqı ilk qurbanlarını da elə Binə-Qala yolunda verib. Həmin istiqamətdən Bakıya doğru hərəkət edən qoşunların qarşısını keçmiş "Komsomol" dairəsində dinc əhalinin barrikadası kəsib. Gecə saat təqribən 11 radələrində barrikadanı yaran qoşun "Komsomol" dairəsində təcili yardım maşınlarına da atəş açıb. Təcili yardım maşınında olan həkim Aleksandr Marxevka yaralılara tibbi yardım göstərmək istəyərkən həlak olub. "Qurd qapısı" istiqamətindən isə Sovet qoşunları saat 00:00 radələrində hərəkət etməyə başlayıb. Badamdar yolunu kəsən bu qoşun hissələri də sonradan üç istiqamətdə hərəkət edib. Birinci istiqamət metronun "Elmlər Akademiyası" stansiyası, ikinci istiqamət keçmiş "Sovetski" küçəsi, üçüncü istiqamət isə Ali Sovetin qarşısı olub. Gecə saat 12-yə qalmış Sumqayıt - "Nasosnı" marşrutu istiqamətindən də hərəkət edən qoşunlar Biləcəri yolunda qurulan barrikadanı uçuraraq qəsəbəyə, həm də Bakıya daxil olub. Biləcəri qəsəbəsində, "Şamaxinka" deyilən ərazidə və keçmiş "XI Qızıl Ordu", indiki "20 Yanvar" meydanında çoxsaylı ölənlər, yaralananlar olub. 20 Yanvar faciəsi zamanı 131 insan öldürülmüş: onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 adam ağır xəsarət almış; 4-şəxs itkin düşmüş; 841 nəfər isə qanunsuz həbs edilmişdir. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdir. Fövqəladə vəziyyətin elan olunmadığı Neftçala və Lənkəranda daha 8 nəfər qətlə yetirilmişdir. Beləliklə Azərbaycan xalqının taleyində baş verən Yanvar faciəsi xalqın SSRİ-yə qarşı nifrətini tam formalaşdırdı. Bundan sonrakı proseslər ancaq Azərbaycan xalqının öz müstəqilliyi uğrunda mübarizəsi fonunda getdi. 20 Yanvar hadisələrinin səhərisi günü Azərbaycanın ümummilli lideri Heydər Əliyevin faciəyə Moskvada verdiyi qiymət imperiyanın xarakterini təkcə müəyyən etmədi, həm də Azərbaycan xalqına gələcəkdə seçəcəyi yolu əks etdirdi. 1990-cı ilin əvvəllərində öz müstəqilliyini bərpa etmiş Azərbaycanda parçalanmaq, dağılmaq təhlükəsi olan bir dönəmdə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev xalqı bölünməkdən, milləti məhv olmaqdan xilas etdi və Azərbaycanı dirçəltdi. 2003-cü ildə cənab İlham Əliyevin Azərbaycan Respublikasının prezidenti seçilməsi yeni bir dövrün başlanğıcı oldu. Regionların sosial-iqtisadi inkişafı, qüdrətli iqtisadiyyat, güclü ordu, bu orduda böyük vətənpərvərlik hissi, ölkə daxilində xalq-iqtidar birliyi təmin olundu. Uzun illər boyu xalqımızın başına min bir müsibət gətirən, hər cür təxribatdan çəkinməyən, işğalçı mövqeyindən əl çəkməyən ermənilərə 2020-ci ildə Vətən Müharibəsində tutarlı cavab verildi, 200 ildən artıq tariximizin qara ləkəsi olan ermənin "ocağı" darmadağın edildi, "böyük Ermənistan" mifi məhv edildi. Bu gün Yanvar faciəsi şəhidlərinin ruhları şaddır, vətən düşmən tapdağından azad olunub. Bu şanlı tarixi bizə yaşadan Azərbaycan Respublikasının Prezidenti, onun qətiyyəti, həyata keçirdiyi diplomatiya, uğurlu addımları və Azərbaycanın Müzəffər Ordusu oldu.

***Günay Məmmədli***
***YAP Yasamal rayonu "Azərsu" ASC üzrə ərazi partiya təşkilatının sədri***

SON SƏHİFƏ

# SƏS

20 yanvar
2023-cü il



## Bakıda banka basqın olub

Bakıda banka basqın edən şəxs zərərsizləşdirilib. Bu barədə SİA-ya Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Bildirilib ki, dünən saat 12 radələrində bir nəfər naməlum şəxs banklardan birinin Yasamal rayonu ərazisində yerləşən filialına gələrək əlindəki dəmir linglə oranın işçilərini hədələyərək pul tələb edib. Orada xidmətdə olan DİN-in Baş Mühafizə İdarəsinin əməkdaşlarının operativ və çevik hərəkətləri sayəsində həmin şəxs tutularaq zərərsizləşdirilib.

Onun Şirvan şəhər sakini, əvvəllər məhkum olunmuş 33 yaşlı İmran Əhmədov olması müəyyən edilib. Saxlanılan şəxsin üzərindən bir ədəd qaz tapançası, bir bıçaq və istifadə etdiyi dəmir ling polis əməkdaşları tərəfindən götürülüb. Faktla bağlı Yasamal Rayon Polis İdarəsində araşdırmalara başlanılıb.

## Əmək müqavilələrinin elektron versiyaya keçməsinin əhəmiyyəti nədən ibarətdir?

Əmək müqaviləsi üzrə işləyən işçi üçün vacib olan onun həyatının, sağlamlığının və əməyinin mühafizəsini təmin etməkdir. İşçi əmək şəraitində çalışmaq, habelə belə şəraitin yaradılmasını tələb etmək hüququ əldə edir. Müqavilə həmçinin işçiyə qanunvericiliklə müəyyən edilmiş iş vaxtı müddətində çalışmaq, minimum əmək haqqından aşağı olmayan əmək haqqı almaq, iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqı almaq və ya onun verilməsini tələb etmək hüququ verir.

Araşdırmalar göstərir ki, qeyri-rəsmi formada, əmək müqaviləsi yaradaraq işlərin görülməsinə cəlb edilən insanlar onlara heç bir istirahət və məzuniyyət günləri verilmədən işlədilirlər. Əmək müqaviləsi üzrə çalışan işçilər isə Azərbaycan Respublikasının Əmək Məcəlləsində müəyyən olunmuş həftələrarası istirahət günlərindən, minimum müddətdən az olmayan ödənişli əsas və əlavə əmək məzuniyyətlərdən, müvafiq hallarda sosial, ödənişli yaradıcılıq və təhsil, eləcə də ödənişsiz məzuniyyətlərindən istifadə etmək hüquqlarına malikdir.

Əmək müqavilələrinin elektron versiyaya keçməsinin əhəmiyyəti nədən ibarətdir?

SİA mövzu ilə bağlı araşdırma aparıb. Bəzən şirkətlər heç bir əsas olmadan müddətli müqavilələr bağlayırlar ki, müqavilə başa çatdıqda işçini sərbəst şəkildə işdən azad etsinlər. Tez-tez bunu çətin maliyyə vəziyyəti olan firmalar edir. Müəyyən müddətli müqavilələrin köməyi ilə tərəflərin razılığı ilə işdən çıxarıldıqda kompensasiyaya qənaət etməyə çalışırlar. Lakin qanun belə uzaqgörənliyi xoş qarşılamır.




Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 49-cu maddəsinin birinci bəndinə əsasən əmək müqaviləsinin bağlanılması, ona dəyişiklik edilməsi və ya xitam verilməsi bununla bağlı elektron informasiya sisteminə daxil edilmiş əmək müqaviləsi bildirişinin həmin elektron informasiya sistemində qeydiyyata alınmasından və bu barədə işəgötürənə elektron qaydada məlumat göndərilməsindən sonra hüquqi qüvvəyə minir.

Məhz e-imza işəgötürənin işçi ilə imzaladığı və möhür ilə təsdiq etdiyi əmək müqaviləsinin sistemə daxil edilərkən eyni hüquqi qüvvəni saxlamasını təmin edir. Sistemdə işəgötürən tərəfindən təsdiq edilmiş hüquqi qüvvəyə malik əmək müqaviləsi yerləşdirilir. E-imza vasitəsilə sistemə daxil edilən əmək müqaviləsi bildirişi eynilə kağız üzərində olduğu kimi, hər iki tərəfin hüquqlarını müdafiə edərək, məsuliyyətdən yayınmanın qarşısını alır.

Bu sistem işçilərin əmək hüquqlarının pozulmamasına, habelə işəgötürən-işçi münasibətlərinə nəzarəti gücləndirməklə, inkişaf edən və ya inkişafdan qalan fəaliyyət sahələrin ayırd edilməsinin asanlaşmasına, iqtisadi inkişafın keyfiyyətinin artmasına, dolayısı ilə də sosial rifahın yüksəldilməsinə müsbət təsir göstərir.

İqtisadçı ekspert Günay Hüseynova: "Dünyanın bir çox ölkələrində əksər xidmət sahələri elektronlaşdırılıb. Burada isə əsas məqsəd vətəndaşların məmnuniyyəti, şəffaflıq və ümumilikdə hər hansı bir sənədə minimum zamanda əlçatanlıqdır. Ölkəmiz üçün də bu sistemin qurulması və tətbiqi prioritet məsələlərdən hesab olunur və hər zaman da dünya gedən müsbət texnoloji proseslərə qısa zaman kəsiyində adaptasiya olmağa çalışır. Xüsusilə qeyd edim ki, ölkəmiz üçün vətəndaş məmnuniyyəti, onların sosial iqtisadi rifahının yaxşılaşdırması hər zaman ön planda olub. Bildiyimiz kimi elekton hökumət sistemi fəaliyyət göstərir vətəndaş istənilən vaxt ona aid olan hər hansı bir sənədi, məlumatı asanlıqla ordan əldə edə bilər. Elektron Əmək Müqaviləsi də həmin sistemin tərkib hissəsi olacaqdır. Elektron imza identifikasiyaya, sənəd üzərindəki imza və möhürlə eyni hüquqa malikdir. Bu həm sahibkar, həm də vətəndaşlar üçün üstünlüyə malikdir. Belə ki, dünyanın hansısa ölkəsində olmasına baxmayaraq sahibkar birbaşa e-imza ilə işini həll edə bilər. Vətəndaşlar üçün isə ümumiyyətlə bu sistemə keçid üstünlükdür. Çünki neqativ hallar dəfələrlə yaşandı. Təqaüd yaşına çatmış bir şəxsin stajı əksik yazılmış olur və ya ümumiyyətlə sığorta olunmayıb, əmək müqaviləsi bağlanmır və ya sahibkar sui-istifadə edir. Bu kimi bir çox hallar yaşanır. Onun üçün də elektron müqavilə müsbət haldır. Vətəndaşlardan isə tələb olunan sadəcə maksimum səviyyədə diqqətli olmalarıdır. Elektron istər kağız üzərində olan müqavilənin şərtlərini diqqətli oxusunlar ondan sonra müqavilə bağlasınlar. Əmək müqaviləsi onlar üçün işçinin hüquqlarını qoruyan qanuni əsaslı sənəd, bir növ həyat sığortasıdır. Əmək müqaviləsinin olması iqtisadi aspektdən də üstünlükdür belə ki, sahibkar işçini istismar edir, vergidən yayınır. Bu halda həm vergi büdcədən yayınır, həm də illik statistikada işsizlik səviyyəsində rəqəm yüksəlir və ortaya xaotik bir vəziyyət çıxır. Elektron imza artıq bütün müəssisələr üçün məcburi olacaq və hər iki tərəfin hüquqlarını müdafiə edərək neqativ halları aradan qaldıracaq. Müqavilənin şərtlərinin bilərəkdən və ya bilməyərəkdən pozulması hallarında tərəflər Əmək Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb olunacaqlar".



***Havar Şəfiyeva***

## İmmunitetimizi necə qoruyaq?

**"Gündəlik həyatda orqanizm viruslar, bakteriyalar və kanserogen maddələr kimi bir çox zərərli amillərlə qarşılaşa bilər. Sağlam həyat yaşamaq üçün bu maddələrlə mübarizə aparmaq lazımdır. İmmun sistemi bu maddələrin bədənimizə verə biləcəyi zərərli təsirləri aradan qaldırmağa çalışır". Bu fikirləri SİA-ya açıqlamasında diyetoloq Sevinc Həsənzadə bildirib.**

Diyetoloq qeyd edib ki, immun sisteminin güclü olub-olmadığını ölçmək mümkün deyil: "Başqa sözlə, immun sisteminin güclü olub-olmadığını göstərən bir test yoxdur, qan testləri isə tam nəticə vermir. Bunun üçün ən vacib göstərici infeksiyaya yoluxmamaq və ya xəstələndikdə yüngül formada keçirməkdir. Həftədə ən azı üç gün balıq yemək, qidalanmada paxlalı bitkilərə üstünlük vermək, mövsümi tərəvəzlər yemək, süd, ayran, qatıq kimi qidaları istehlak etmək vacibdir. Güclü bir immunitet üçün yüksək antioksidant qabiliyyəti olan qidaları istehlak etmək də faydalıdır. Portağal, sitrus meyvələri, qoz, ispanaq, badam, nar, yerkökü, kivi, balıq, ananas, itburnu, zeytun, zeytun yağı, yulaf kəpəyi və qatıq kimi qidalar immuniteti gücləndirir. Xüsusilə, yaşıl yarpaqlı tərəvəzlər (ispanaq, portağal, qarğıdalı, şüyüd, nanə, kahı) tərkibindəki A, C və E vitaminləri, folik turşusu və Omega-3 sayəsində güclü antioksidant xüsusiyyətlərə malikdir. Omega-3 nisbətini artırmaq üçün həftədə 3 gün balıq istehlak edilməlidir. Güclü bir Omega-3 qaynağı olan qoz istehlakı, antioksidant baxımından orqanizmi dəstəkləyir. Kifayət qədər yuxu immun sistemini möhkəm saxlayan amillərdən biridir. Yatarkən ifraz olunan serotonin hormonu sayəsində infeksiyalara daha sürətli cavab verilir. Bu səbəbdən gündə 7-8 saat yuxu almaq məsləhətdir. Su bədən müqavimətini artırmaq və immuniteti möhkəm saxlamaq üçün çox vacibdir. Buna görə gündə 2 litr su içməyə çalışın. Açıq havada idman etmək güclü immunitet üçün vacibdir. Buna görə də mütəmadi idman etməyi unutmayın! Stresinizi idarə etməyə çalışın, alkoqoldan uzaq durun və siqaret çəkməyin. İmmun sisteminin zəifləməsinin ən önəmli səbəblərindən biri düzgün qidalanmama və oturaq həyat tərzidir. Buna görə qidalanmaya diqqət edin".




***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**

**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3600**